AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

18 MAY 2018-ci il CÜMƏ № 110 (6143) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

## Mikayıl Müşfiqin 110 illiyinin qeyd edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2018-ci ilin iyun ayında Azərbaycan poeziyasının görkəmli nümayəndəsi Mikayıl Müşfiqin (Mikayıl Mirzə Əbdülqadir oğlu İsmayılzadənin) anadan olmasının 110 illiyi tamam olur.

Böyük şair Mikayıl Müşfiq milli folklordan və klassik ədəbi ənənələrdən layiqincə bəhrələnməklə yaratdığı dərin lirizmə malik və doğma dilin bütün gözəlliklərini özündə ehtiva edən bənzərsiz poetik nümunələrlə Azərbaycanın çoxəsrlik bədii fikir xəzinəsini daha da zənginləşdirmişdir. Forma yeniliyi, məzmun genişliyi, romantik əhval və yüksək həyat eşqi bu söz sənəti incilərinin başlıca keyfiyyətləridir. Müşfiqin adı 1930-cu illər totalitarizminin qurbanına çevrilmiş məsum insanların xatirəsinin rəmzi və nakam şair obrazı kimi xalqın yaddaşında yaşamaqdadır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan ədəbiyyatının inkişafına dəyərli töhfələr vermiş görkəmli şair Mikayıl Müşfiqin anadan olmasının 110-cu ildönümünün layiqincə qeyd olunmasını təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, Mikayıl Müşfiqin 110 illiyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**
**Bakı şəhəri, 17 may 2018-ci il.**

## Bakı şəhəri Sabunçu rayonunun Ramana qəsəbəsi ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Bakı şəhəri Sabunçu rayonunun Ramana qəsəbəsi ərazisində on üç min nəfər əhalinin istifadə etdiyi, ümumi uzunluğu 3,2 kilometr olan avtomobil yolunun yenidən qurulması məqsədi ilə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 3,7 milyon (üç milyon yeddi yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**
**Bakı şəhəri, 17 may 2018-ci il.**

## X.Ş.İsgəndərovun Bakı şəhəri Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin 2-ci hissəsini rəhbər tutaraq **qərara alıram:**

Xaləddin Şahmar oğlu İsgəndərov Bakı şəhəri Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**
**Bakı şəhəri, 17 may 2018-ci il.**

## "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq, "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununu "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının 2017-ci il 30 iyun tarixli 765-VQ nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

"Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, N 3, maddə 208, N 12, maddə 1019; 2007, N 12, maddə 1194; 2008, N 4, maddə 254, N 6, maddə 464, N 7, maddə 602, N 8, maddələr 699, 710; 2009, N 6, maddələr 395, 399, N 11, maddələr 877, 879; 2010, N 7, maddə 579; 2011, N 4, maddə 267, N 6, maddə 465, N 7, maddə 597, N 12, maddə 1109; 2012, N 11, maddələr 1037, 1044; 2013, N 3, maddə 223, N 5, maddə 485, N 6, maddələr 608, 614; 2015, N 5, maddə 494; 2017, N 5, maddə 676, N 7, maddə 1289, N 10, maddə 1776, N 12 (I kitab), maddə 2193) 21.2.5-ci maddəsində "işsizlik müavinətinin" sözləri "işsizlikdən sığorta ödənişinin" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**
**Bakı şəhəri, 24 aprel 2018-ci il.**

## "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli 1078-VQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli 1078-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*1.1.* Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*1.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.4.* həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**
**Bakı şəhəri, 17 may 2018-ci il.**

## "Ünvanlı dövlət sosial yardımı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq, "Ünvanlı dövlət sosial yardımı haqqında" Azərbaycan Respublikasının Qanununa "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının 2017-ci il 30 iyun tarixli 765-VQ nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

"Ünvanlı dövlət sosial yardımı haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, N 11, maddə 1005; 2008, N 6, maddə 474, N 7, maddə 602, 2015, N 3, maddə 257) 3-cü maddəsində "orqanında" sözündən sonra "dövlət orqanının və ya hüquqi şəxsin ləğv edilməsi və ya işçilərin sayı və ya ştatların ixtisar edilməsi ilə əlaqədar" sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**
**Bakı şəhəri, 24 aprel 2018-ci il.**

## "Ünvanlı dövlət sosial yardımı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli 1084-VQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Ünvanlı dövlət sosial yardımı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli 1084-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*1.1.* Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Ünvanlı dövlət sosial yardımı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*1.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.4.* həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "ünvanlı dövlət sosial yardımı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**
**Bakı şəhəri, 17 may 2018-ci il.**

## "Azərbaycan Respublikasında vətəndaşların pul gəlirlərinin və əmanətlərinin indeksləşdirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasında vətəndaşların pul gəlirlərinin və əmanətlərinin indeksləşdirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununu "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının 2017-ci il 30 iyun tarixli 765-VQ nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

"Azərbaycan Respublikasında vətəndaşların pul gəlirlərinin və əmanətlərinin indeksləşdirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, N 12, maddə 445; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, N 11, maddə 687, N 12, maddə 736; 2003, N 1, maddə 16; 2005, N 8, maddə 691; 2007, N 5, maddə 401; 2017, N 6, maddə 1057) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 3-cü maddənin birinci hissəsinin üçüncü abzasından "işsizliyə görə," sözləri çıxarılsın.

**2.** 6-cı maddənin ikinci hissəsinin yeddinci abzası ləğv edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**
**Bakı şəhəri, 24 aprel 2018-ci il.**

## "Azərbaycan Respublikasında vətəndaşların pul gəlirlərinin və əmanətlərinin indeksləşdirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli 1086-VQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasında vətəndaşların pul gəlirlərinin və əmanətlərinin indeksləşdirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli 1086-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*1.1.* Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasında vətəndaşların pul gəlirlərinin və əmanətlərinin indeksləşdirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*1.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.4.* həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasında vətəndaşların pul gəlirlərinin və əmanətlərinin indeksləşdirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**
**Bakı şəhəri, 17 may 2018-ci il.**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi təbrik edir, ali dövləti fəaliyyətinizdə daha böyük uğurlar arzulayıram.

Bu xoş fürsətdən istifadə edərək, Makedoniya Respublikası ilə Azərbaycan Respublikası arasında yüksək səviyyəli dostluq əlaqələrindən məmnunluğumu ifadə etmək istəyirəm. Ən yüksək səviyyədə siyasi dialoq ölkələrimizin gələcək inkişafının və əməkdaşlığının xüsusən iqtisadiyyat, enerji, mədəniyyət, elm və təhsil kimi qarşılıqlı maraq doğuran sahələrdə dərinləşməsini təmin edən əsas amillərdir. Əminəm ki, əməkdaşlığımız və əldə olunmuş siyasi əlaqələrimiz qarşıdan gələn dövrdə birgə səylərimizlə daha sürətlə inkişaf edəcəkdir.

Sizə beynəlxalq aləmdə xüsusi yeri olan, siyasi və hökumətlər səviyyəsində qərarların qəbul edilməsində uzunmüddətli tərəfdaş olan Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin fəaliyyətinə və səylərinə görə minnətdarlığımı bildirirəm. Bu beynəlxalq mərkəzin fəaliyyətini və rolunu çox yüksək qiymətləndirir, onun regionda əməkdaşlığın və dialoqun təşviqinə yönələn görüşlərində iştirak etməkdən məmnunluğumu ifadə edirəm.

Cənab Prezident, Sizə ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

**George İvanov**
**Makedoniya Respublikasının Prezidenti**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri, möhtərəm cənab Prezident.

İcazə verin, Azərbaycan Respublikası Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Beynəlxalq Elmi və Texniki İnformasiya Mərkəzi qeyri-hökumət təşkilatının üzvü olan 22 dövlətin səlahiyyətli nümayəndələrinin şəxsində bu təşkilatın rəhbərliyi adından və şəxsən öz adımdan Sizə ən səmimi təbriklərimi çatdırım.

Azərbaycan bu təşkilata daxil olduğu vaxtdan MDB ölkələrində vahid elmi-informasiya məkanının formalaşmasına, iqtisadi, təhsil və elmi tədqiqat sahələrində innovativ dəyişikliklər mühitinin yaradılmasına sanballı və konstruktiv töhfələr verir.

Azərbaycanda elmə və innovasiyalı inkişafa həmişə böyük diqqət yetirilir. Xüsusən son onillikdə ölkənin milli elmi-texniki kompleksinin sanballı nailiyyətləri göz qabağındadır. Bizim Mərkəzdə belə bir qəti inam yaranıb ki, təşkilatımızın fəaliyyətində Azərbaycanın genişmiqyaslı iştirakı və bunun üzv dövlətlərin elmi birliyi üçün müsbət səmərəsi daha ciddi artım potensialına malikdir. Bununla əlaqədar ölkənizin səlahiyyətli dövlət təsisatlarının Mərkəzin işində rolunun daha da möhkəmləndirilməsində maraqlıyıq.

Möhtərəm İlham Heydər oğlu, icazə verin, əmin olduğumu bildirim ki, Azərbaycan dövlətinə rəhbərlik edəcəyiniz qarşıdakı illərdə də Beynəlxalq Elmi və Texniki İnformasiya Mərkəzinin işində Azərbaycanın iştirakının müsbət təcrübəsi və meyilləri qorunub saxlanılacaq və artırılacaq.

*Dərin hörmətlə,*

**Yevgeni Uqrinoviç**
**Beynəlxalq Elmi və Texniki İnformasiya Mərkəzinin baş direktoru**
**Rusiya Federasiyası, Moskva şəhəri**

# Almatıda Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə və ümummilli lider Heydər Əliyevin 95 illiyinə həsr olunmuş konfrans keçirilib

*Tədbir çərçivəsində Qazaxıstan Milli Universitetində Azərbaycan Tarix və Mədəniyyət Mərkəzi açılıb, dahi dramaturq Hüseyn Cavidin 135 illiyinə həsr olunmuş xüsusi konfrans təşkil edilib*







**Mayın 17-də Almatı şəhərindəki Əl-Fərabi adına Qazaxıstan Milli Universitetində Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə və ümummilli lider Heydər Əliyevin 95 illiyinə həsr olunmuş konfrans keçirilib.**

AZƏRTAC xəbər verir ki, Əl-Fərabi adına Qazaxıstan Milli Universitetinin rektoru Qalimkair Mutanov konfransı açaraq Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin və ümummilli lider Heydər Əliyevin 95 illik yubileyinin universitetdə təşkil edilməsinin əhəmiyyətindən danışıb. Rektor vurğulayıb ki, Azərbaycan Xalq Cümhuriyyəti türk-müsəlman dünyasında ilk demokratik respublika idi. Onun yaratdığı dəyərlər təkcə Azərbaycan üçün deyil, bütün türk dünyası üçün mühüm əhəmiyyət kəsb edir. Bu dövlətin yaratdığı seçki, dövlət idarəçiliyi ənənələri, elm, təhsil, mədəniyyət və digər sahələrdə gördüyü işlər sonrakı dövrlərdə bütün türk cümhuriyyətlərində istifadə olunmuş dəyərlər kimi bizim üçün də qiymətlidir.

Azərbaycanın Qazaxıstandakı səfiri Rəşad Məmmədov konfransda geniş məruzə ilə çıxış edib.

Səfir deyib ki, Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşasa da, tariximizdə şanlı və şərəfli yer tutur. Bu gün Azərbaycan dövləti həmin tarixlə qürur duyur. Təsadüfi deyil ki, ümummilli lider Heydər Əliyev indiki müstəqil dövlətimizin Azərbaycan Xalq Cümhuriyyətinin varisi olduğunu bəyan edib. Cümhuriyyətin qısa müddətdə həyata keçirdiyi tədbirlər və qəbul etdiyi qərarlar, atdığı addımlar tariximizdə silinməz iz buraxıb, milli dövlətçilik ənənələrinin bərpası işində böyük rol oynayıb. Azərbaycan Xalq Cümhuriyyəti az yaşasa da, xalqımızda azadlıq, müstəqillik ideyalarını daha da gücləndirib.

Diplomat diqqətə çatdırıb ki, bu günlərdə 95 illik yubileyini qeyd etdiyimiz ulu öndər Heydər Əliyev Azərbaycanda yenidən hakimiyyətə qayıtdıqdan sonra müstəqilliyimizin davamlı və əbədi olması yolunda qətiyyətli addımlar atdı və bu sahədə qarşıya çıxan çətinlikləri aradan qaldırdı. Müstəqillik illərində ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə ölkədə çox uğurlu xarici siyasət aparıldı, dünyanın inkişaf etmiş bütün dövlətləri ilə diplomatik əlaqələr yaradıldı və əməkdaşlıq haqqında ölkəmizin maraqlarına xidmət edən ikitərəfli sazişlər bağlandı. Bu gün Heydər Əliyev siyasi kursunun layiqincə davam etdirilməsi, Prezident İlham Əliyevin düşünülmüş strategiyası müstəqil Azərbaycanı dünyanın inkişaf etmiş demokratik dövlətlərindən birinə, beynəlxalq aləmdə söz və nüfuz sahibinə çevirib.

Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov çıxış edərək konfransın təşkilatçılarına - Əl-Fərabi adına Milli Universitetin rəhbərliyinə, TÜRKSOY-a, Beynəlxalq Türk Akademiyasına və tədbirdə iştirak edən Qazaxıstan rəsmilərinə təşəkkürünü bildirib. Prezidentin köməkçisi deyib ki, bu cür tədbirlər xalqlarımız, dövlətlərimiz arasındakı dostluq və qardaşlıq münasibətlərinin göstəricisidir. Azərbaycan Prezidenti İlham Əliyev və Qazaxıstan Prezidenti Nursultan Nazarbayev ölkələrimiz arasında əlaqələrin inkişafına böyük önəm verirlər. Bu gün Azərbaycan ilə Qazaxıstan bir çox sahələrdə sıx əməkdaşlıq edir, beynəlxalq qurumlarda bir-birini dəstəkləyirlər. Əminik ki, bu əlaqələr xalqlarımızın mənafeyi naminə daim inkişaf edəcək.





Beynəlxalq Türk Akademiyasının prezidenti Darxan Kıdırəli bildirib ki, ötən yüzilliyin əvvəllərində bütün türk dünyasında özünü göstərən milli azadlıq hərəkatı müxtəlif coğrafiyalarda yayılsa da, Azərbaycanda xüsusilə geniş vüsət aldı. Bu il qeyd etdiyimiz Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi bütün müsəlman Şərqində ulduz kimi doğdu. Cümhuriyyət təkcə Azərbaycanda deyil, bütün türk dünyasında milli düşüncənin oyanması və formalaşmasında vacib rol oynadı. Xarici ölkələrdə diplomatik nümayəndəliklər açıldı.

Darxan Kıdırəli qeyd edib ki, Beynəlxalq Türk Akademiyası bu tarixi hadisənin önəmini, Prezident İlham Əliyevin Azərbaycan Xalq Cümhuriyyətinin yüzillik yubileyinin yüksək səviyyədə keçirilməsi üçün imzaladığı Sərəncamı nəzərə alaraq geniş tədbirlər proqramı hazırlayıb. Biz artıq beynəlxalq səviyyədə ilk tədbirimizi reallaşdırmışıq. Aprel ayında Parisdə UNESCO-nun baş qərargahında keçirdiyimiz beynəlxalq forum çərçivəsində Cümhuriyyətin 100 illik yubileyini və onun qurucularından olan Əlimərdan bəy Topçubaşovun 155 illiyini qeyd etdik. Cari ilin iyun ayında Astanada təşkil edəcəyimiz IV Böyük Beynəlxalq Humanitar Forumun bir panelini bütünlüklə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr edəcəyik. Bununla yanaşı, ilk dəfə olaraq qazax dilində Cümhuriyyətə aid ensiklopedik xarakterli sənədlər və faktlarla zəngin olan nəfis tərtibatda kitab çapa hazırlanıb.

Qazaxıstan Xalqları Assambleyasının üzvü, Qazaxıstan Azərbaycanlıları Assosiasiyasının sədri Əbülfəz Xamedov deyib ki, Azərbaycanla Qazaxıstanı etnik-tarixi köklərdən başqa, son onilliklərin siyasi münasibətlər sistemini müəyyənləşdirən əhəmiyyətli amillər də yaxınlaşdırır. Qazaxıstan-Azərbaycan əlaqələrinin inkişafında və Qazaxıstanın ictimai-siyasi, iqtisadi, mədəni, sosial həyatında azərbaycanlıların mühüm rolu var. Dost və qardaş Qazaxıstanda məskunlaşan 300 mindən çox soydaşımız daim tarixi Vətənimiz olan Azərbaycanda gedən inkişaf proseslərini sevinclə izləyir və iki ölkə arasında münasibətlərin tərəqqisinə töhfələrini verirlər.

Əl-Fərabi adına Qazaxıstan Milli Universitetinin professoru Saypulla Sapanov bildirib ki, Azərbaycan və Qazaxıstan xalqlarını daha da yaxından tanımağımız üçün ortaq keçmişdən süzülüb gələn dəyərlərimizi yenidən dərk etməli və onlara sahib çıxmalıyıq. Bu cür tədbirlərin, birgə elmi layihələrin reallaşdırılmasının əhəmiyyəti böyükdür.

Saypulla Sapanov deyib ki, ulu öndər Heydər Əliyevin müasir müstəqil Azərbaycan dövlətinin qurulmasında xidmətlərini saymaqla bitməz. Məhz Heydər Əliyev və Nursultan Nazarbayev tərəfindən əsası qoyulan sıx dostluq münasibətləri bu gün uğurla davam edir.

Tədbirdə ümummilli lider Heydər Əliyev haqqında film nümayiş olunub.

* * *

Sonra Əl-Fərabi adına Qazaxıstan Milli Universitetində Azərbaycan Tarix və Mədəniyyət Mərkəzinin açılışı olub.

Mərkəzdə Azərbaycana aid çoxsaylı siyasi, elmi, mədəni ədəbiyyat toplanıb. Azərbaycanın mədəniyyətini, siyasətini, tarixini əks etdirən tablolar asılıb. Tabloların hər birində xronoloji məlumatlar yer alıb. Diqqətə çatdırılıb ki, bu mərkəzdə alimlər, müəllimlər, tələbələr tədqiqatlar aparacaq, Azərbaycanın ali məktəbləri, o cümlədən elm-təhsil ictimaiyyəti ilə əlaqələr quracaqlar.

Əl-Fərabi adına Qazaxıstan Milli Universitetinin rektoru Qalimkair Mutanov açılış mərasimində çıxış edərək bu mərkəzin Azərbaycan-Qazaxıstan elmi, ictimai, siyasi, sosial əlaqələri üçün əhəmiyyətindən danışıb.

Azərbaycan Prezidentinin köməkçisi Əli Həsənov mərkəzin açılışına verdiyi dəstəyə görə universitetin rəhbərliyinə təşəkkür edib. Diqqətə çatdırıb ki, bu mərkəz gələcəkdə ölkələrimiz arasında elm, təhsil, mədəniyyət sahələrində əlaqələndirici bir vəsilə olacaq. Əli Həsənov bu mərkəzin xalqlarımızın bir-birini daha yaxşı tanımalarına, elmi biliklərin mübadiləsinə müsbət təsir göstərəcəyini vurğulayıb.

Azərbaycanın Qazaxıstandakı səfiri Rəşad Məmmədov mərkəzin yaradılması ilə bağlı görülən işlərdən danışıb.

* * *

Daha sonra Əl-Fərabi adına Universitetin böyük akt zalında Azərbaycanın dahi dramaturqu Hüseyn Cavidin 135 illiyinə həsr olunmuş xüsusi konfrans keçirilib.

Universitetin rektoru Qalimkair Mutanov, Azərbaycan Prezidentinin köməkçisi Əli Həsənov, TÜRKSOY-un baş katibi Düsen Kaseinov, Azərbaycanın Qazaxıstandakı səfiri Rəşad Məmmədov, Beynəlxalq Türk Akademiyasının prezidenti Darxan Kıdırəli konfransda salamlama nitqləri söyləyiblər.

Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, Əməkdar Elm Xadimi Kamran Əliyev görkəmli dramaturqun həyat və yaradıcılığından söhbət açaraq qeyd edib ki, Hüseyn Cavid böyük ədəbi xidmətləri olan, öz məktəbini yaradan sənətkar, romantizm ədəbi cərəyanının banisidir. Alim Hüseyn Cavidin indiyədək araşdırılmamış və nəşr edilməmiş qeyd dəftərləri, əlyazmaları əsasında onun fikirlərini şeirə çevirməsi texnologiyasından söz açıb.

Azərbaycan Milli Elmlər Akademiyasının doktorantı Sona Vəliyeva bildirib ki, Hüseyn Cavid məfkurəsi əbədidir. Çünki o, millətin dilini, mənəviyyatını, məxsus olduğu bütün dəyərləri birləşdirərək türkçülük məfkurəsini bütün əsərlərində tərənnüm edib. Hüseyn Cavid bilirdi ki, türk dünyasının xilası, onun tarixdə duruşu və millətin millət kimi bütün təhlükələrdən qurtuluşu türkçülük məfkurəsinin olmasındadır. Hüseyn Cavidin dünyəvi məktəbdə təhsil alması və həyatında baş verən digər hadisələr Ulu Tanrının yazısı idi. Onun dini təhsil alması da irfan mədəniyyətinin formalaşması üçün lazım idi. Cavid o dövrdə hürufi ocağı, hər qarış torpağında övliya məzarı olan Naxçıvanda dünyaya gəlməli, buranın insanları ilə ünsiyyətdə olmalı idi. Atasının minbir əziyyətlə dilə tutub yazdırdığı molla məktəbindən qaçmalı, Məhəmməd Tağı Sidqinin məktəbinə gəlməli, dünyəvi elmlərlə tanış olmalı idi. O, öz yaradıcılığını iki böyük məfkurənin qovuşduğu bünövrə üzərində qurmalı idi. Buna görə də o, Azərbaycan, ardınca Təbriz, daha sonra isə Türkiyə mühitini görüb təhsil almalı idi. Hüseyn Cavidin taleyinə türk dünyasının ən böyük filosoflarından dərs almaq yazılmışdı. O, məfkurənin nədən başlandığını və digər prinsipləri öyrənməli, bunları öz əsərlərində təcəssüm etdirməli idi. Məhz buna görə də 1937-ci ilin sərt, amansız repressiya küləyi ondan da yan keçməyib, Sibirə sürgün olunub və 1941-ci ilin şaxtalı qış ayında İrkutskda həyatla vidalaşıb.

Ümummilli lider Heydər Əliyevin görkəmli ədibin nəşinin Azərbaycana gətirilməsi istiqamətində fəaliyyətindən söz açan Sona Vəliyeva qeyd edib ki, ulu öndər dahi Cavidin yaradıcılığını yüksək qiymətləndirirdi.

"Ədəbiyyat" qəzetinin baş redaktoru, cavidşünas alim Azər Turan çıxış edərək bildirib ki, bu gün biz Qazaxıstanda Azərbaycan Cümhuriyyətinin 100 illiyini qeyd etdik. Bu gün biz ulu öndər Heydər Əliyevin 95 illik yubileyindən danışdıq, qazax şairi Əhməd Baytursunun dostu Hüseyn Cavidi andıq. 1926-cı ildə Əhməd Baytursun Hüseyn Cavidin evində qonaq olub. Biz bilirik ki, füyuzat estetikası müasirləşmək, islamlaşmaq, türkləşmək deməkdir. Məhz Hüseyn Cavidin yaradıcılığı da həmin türkləşmək, islamlaşmaq, müasirləşmək triadasının əsasında hasilə gəlib. Bugünkü mövzular o qədər müqəddəsdir ki, hər birimizin qəlbində bu mövzuların işıqları yanır. Bu gün Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi, ulu öndər Heydər Əliyevin 95 illiyi və dramaturq Hüseyn Cavidin 135 illiyi bir ocaq, bir vətən deməkdir.

Konfransda məruzələr dinlənilib və müzakirələr aparılıb.

Tədbirin sonunda Azərbaycan icmasının rəhbəri Əbülfəz Xamedov Prezidentin köməkçisi Əli Həsənova "Abay" xatirə medalını təqdim edib.

Tədbirlərdə Milli Məclisin deputatı, Azərbaycan-Qazaxıstan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Adil Əliyev, işçi qrupunun üzvü, deputat, Azərbaycanda Atatürk Mərkəzinin direktoru Nizami Cəfərov da iştirak ediblər.

**AZƏRTAC**

# Azərbaycan ilə Qazaxıstan arasında əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub

**Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov Qazaxıstanın Almatı şəhər akimi (qubernatoru) Baurjan Baybek ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, görüşdə ölkələrimiz arasında siyasi, iqtisadi, humanitar və digər sahələrdə ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsi üçün geniş potensialın olduğu bildirilib.

Prezidentin köməkçisi deyib ki, müstəqillik illərində Qazaxıstan mühüm nailiyyətlər əldə edərək regionun aparıcı dövlətlərindən birinə çevrilib. Azərbaycanın siyasi sahədə sabit diplomatik münasibətlərinin mövcud olduğu ölkələrdən biri məhz Qazaxıstandır. Azərbaycan-Qazaxıstan əlaqələrinin genişlənməsinə əlverişli şərait yaradan üstünlüklər, eyni zamanda, düşünülmüş siyasət regionun inkişafına təkan verən bir sıra layihələrin reallaşdırılmasını şərtləndirib.



Almatı şəhər akimi Baurjan Baybek Azərbaycana səfəri zamanı müşahidə etdiyi inkişaf haqqında xoş təəssüratlarını bölüşüb. O, ölkələrimiz arasında ikitərəfli və çoxtərəfli formatda əməkdaşlığın müxtəlif sahələrinə toxunub, münasibətlərin strateji xarakter daşıdığını qeyd edib.

Söhbət zamanı ölkələrimiz arasında müxtəlif sahələrdə əməkdaşlıq əlaqələrinin getdikcə möhkəmləndiyi vurğulanıb, ikitərəfli münasibətlərin hazırkı vəziyyəti və inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

Azərbaycanın Qazaxıstandakı səfiri Rəşad Məmmədov görüşdə iştirak edib.

**AZƏRTAC**

# Baş prokuror Masallıda vətəndaşları qəbul edəcək

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, baş prokuror Zakir Qaralov mayın 25-də saat 10:00-da Masallı Rayon Prokurorluğunun inzibati binasında Masallı, Lənkəran, Astara, Lerik və Yardımlı rayon sakinlərinin qəbulunu keçirəcək.**

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qəbulda vətəndaşların prokurorluq orqanlarının səlahiyyətlərinə aid olan müraciətlərinə baxılacaq.

Vətəndaşların qəbulla bağlı qeydiyyatı və Masallı rayonuna gəlmələri müvafiq rayon prokurorları tərəfindən həyata keçiriləcək.

Vətəndaşlar yaşadıqları ərazi üzrə rayon prokurorluqlarına yazılı və ya şifahi müraciət etməklə yanaşı, Baş Prokurorluğun müraciətlərə baxılması idarəsinin 437-28-79 nömrəli telefonu və contact@prosecutor.gov.az elektron poçt ünvanı vasitəsilə də qəbula yazıla bilərlər.

**AZƏRTAC**

# Ali məktəb tələbələri arasında İnformatika üzrə ümumrespublika olimpiadasının qalibləri mükafatlandırılıb

**Ali məktəb tələbələri arasında informatika üzrə ümumrespublika olimpiadasının qalibləri mükafatlandırılıb.**

AZƏRTAC xəbər verir ki, mayın 17-də "AzIntelecom" Məhdud Məsuliyyətli Cəmiyyətində Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Heydər Əliyev Fondu, Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) İnformasiya Texnologiyaları İnstitutunun birgə təşkilatçılığı ilə ali məktəb tələbələri arasında İnformatika üzrə ümumrespublika olimpiadasının qaliblərinin mükafatlandırılma mərasimi keçirilib. Tədbir 17 may - Ümumdünya Telekommunikasiya və İnformasiya Cəmiyyəti Gününə həsr olunub.



Əvvəlcə Beynəlxalq Telekommunikasiya İttifaqının baş katibi Houlin Zaonun 17 may - Ümumdünya Telekommunikasiya və İnformasiya Cəmiyyəti Günü ilə bağlı videotəbriki nümayiş olunub.

Mükafatlandırılma mərasimində iştirak edən nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə qalibləri təbrik edib, onlara uğurlar arzulayıb. Nazir qeyd edib ki, İKT sahəsi dünyada ən dinamik və sürətlə inkişaf edən bir sahədir. Azərbaycanda da bu sahə Prezident İlham Əliyev tərəfindən daim diqqətdə saxlanılır.

Ramin Quluzadə mayın 17-nin Ümumdünya Telekommunikasiya və İnformasiya Cəmiyyəti Günü olduğunu xatırladaraq 2006-cı ildən etibarən hər il dünyada bu günə həsr olunmuş müxtəlif tədbirlərin keçirildiyini bildirib. ümumdünya Telekommunikasiya və İnformasiya Cəmiyyəti Gününün builki mövzusunun "Süni intellekt" olduğunu qeyd edən nazir Ramin Quluzadə ölkəmizdə ali məktəb tələbələri arasında intellektual potensialın inkişafına töhfə verən gənclərin yetişdiyini diqqətə çatdırıb. O, 10 ildən çox müddətdə keçirilən olimpiadanın gənclər arasında proqramlaşma vərdişlərinin inkişafında mühüm rol oynadığını bildirib.

"Bu gün gənclərin ölkəmizin innovativ inkişafında rolunun artırılması üçün bir çox işlər görülür. Startap hərəkatı genişlənir, innovativ ideyalar qrant, kredit və investisiya vasitəsilə dəstəklənir. Bu istiqamətdə həyata keçirilən tədbirləri intensivləşdirmək üçün İnnovasiya Mərkəzinin yaradılması planlaşdırılır", - deyə nazir vurğulayıb.

Mükafatlandırılma mərasimində Heydər Əliyev Fondunun, Təhsil Nazirliyinin, Bakı Mühəndislik Universitetinin, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının, AMEA-nın İnformasiya Texnologiyaları İnstitutunun, Bakı Dövlət Universitetinin, "BestComp Group" şirkətinin, "Nar" operatorunun nümayəndələri, tələbələr və komanda rəhbərləri iştirak edib.

Təhsil nazirinin müavini Firudin Qurbanov bildirib ki, dünyada İKT sahəsi ən prioritet istiqamətlərdən biridir. Hər bir ölkə özünün inkişafında bu sahəyə olduqca böyük diqqət yetirir. Azərbaycanda da dövlət tərəfindən İKT sahəsi daim diqqətdə saxlanılır, mühüm sənədlər imzalanır, bir sıra dövlət proqramları təsdiq olunur. İKT-nin inkişafı ilə bağlı Təhsil Nazirliyinin qarşısında da mühüm vəzifələr durur. Bu sahədə kadrların hazırlanması, onların müasir tələblər səviyyəsində formalaşdırılması təhsil sisteminin əsas vəzifələrindən biridir.

Məlumat verilib ki, ali məktəb tələbələri arasında informatika üzrə ümumrespublika olimpiadası iki mərhələdə keçirilib.

Olimpiadanın aprelin 29-da Bakı Mühəndislik Universitetində keçirilmiş birinci mərhələsində respublikanın 25 ali təhsil müəssisəsindən 62 komanda, ikinci (final) mərhələsində isə respublika üzrə 14 ali təhsil müəssisəsinin ən yaxşı nəticə göstərən 14 komandası iştirak edib.

Olimpiadanın birinci və ikinci (final) mərhələsində müvafiq informasiya sistemi üzərindən təqdim olunan tapşırıqlar (10-12 məsələ) 5 saat müddətində həll edilib.

Olimpiadanın final mərhələsi AMEA-nın İnformasiya Texnologiyaları İnstitutunun maddi-texniki bazasından istifadə etməklə keçirilib.

Olimpiadada I yerə Bakı Mühəndislik Universiteti, II yerə ADA Universiteti, III yerə Bakı Dövlət Universiteti, IV yerə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası layiq görülüb.

Bakı Ali Neft Məktəbi, Azərbaycan Texniki Universiteti, Azərbaycan Dövlət Aqrar Universiteti, M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialı isə fərqlənmə sertifikatı ilə təltif olunublar.

Tədbirdə qaliblər Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin fəxri fərman və diplomları, eləcə də olimpiadanın sponsorları "NAR" operatoru və "BestComp Group" şirkəti tərəfindən mükafatlandırılıblar.

**AZƏRTAC**

# Müdafiə naziri Azərbaycan, Türkiyə və Gürcüstan hərbi təhsil müəssisələrinin rəhbərləri ilə görüşüb



**Mayın 17-də müdafiə naziri, general-polkovnik Zakir Həsənov Azərbaycan Ali Hərbi Məktəbinin rəisi, general-mayor Füzuli Salahov, Türkiyə Respublikası Quru Qoşunları Məktəbinin rəisi, briqada generalı İsmayıl Güzeller və Gürcüstan Milli Müdafiə Akademiyasının rektoru, polkovnik Zaza Caparidze ilə görüşüb.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, martın 31-də Giresun şəhərində Azərbaycan, Türkiyə və Gürcüstan arasında imzalan müdafiə sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumuna əsasən, hər üç ölkənin hərbi təhsil müəssisələri rəhbərlərinin Bakıda keçirilən görüşü çərçivəsində aparılan müzakirələrin, təcrübə mübadiləsinin mühüm əhəmiyyət kəsb etdiyini deyən müdafiə naziri belə tədbirlərin mütəmadi keçirilməsinin vacibliyini vurğulayıb.

General-polkovnik Z.Həsənov Azərbaycan, Türkiyə və Gürcüstan hərbi təhsil müəssisələri rəhbərlərinin Bakıdakı tədbirinin hər üç ölkənin müdafiə nazirləri və Silahlı Qüvvələri Baş Qərargah rəislərinin bu günədək keçirdikləri görüşlərin davamı kimi qiymətləndirib, bu əməkdaşlığın regionda sülhün və təhlükəsizliyin təmin edilməsinə mühüm töhfə verəcəyinə əminliyini bildirib.

Tərəflər, həmçinin hər üç ölkənin hərbi təhsil müəssisələri arasında kursantların qarşılıqlı təhsil almaları, birgə təlimlərin, idman, bilik yarışlarının keçirilməsi və bir sıra digər məsələləri müzakirə ediblər.

Görüşün təşkilinə və qonaqpərvərliyə görə general-polkovnik Z.Həsənova minnətdarlıqlarını ifadə edən məktəb rəhbərləri də Bakıda aparılan üçtərəfli səmərəli müzakirələrin təmsil etdikləri ali hərbi təhsil müəssisələri arasında əlaqələrin daha da inkişafına, birgə fəaliyyətlərin həyata keçirilməsi işinə mühüm töhfələr verəcəyinə əminliklərini bildiriblər.

**AZƏRTAC**

# Uels şahzadəsi Çarlz Londonda AZƏRTAC da daxil olmaqla bir qrup media rəhbəri ilə görüşüb





**Londonun dünyada məşhur olan "Tate Britain" incəsənət qalereyasında Böyük Britaniyanın Press Association informasiya agentliyinin 150 illiyi münasibətilə təntənəli mərasim keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbirə Böyük Britaniyanın Reuters, ABŞ-ın Associated Press, Rusiyanın TASS, Türkiyənin Anadolu, İtaliyanın ANSA, İsveçin TT (Avropa Xəbər Agentlikləri Alyansının sədri), Rumıniyanın Agerpress, Bolqarıstanın BTA, Polşanın PAP, Yunanıstanın ANA/MPA və bir çox digər ölkələrin xəbər agentliklərinin rəhbərləri və nümayəndələri, İngiltərənin media qurumlarının təmsilçiləri qatılıblar. Mərasimdə AZƏRTAC-ın İdarə Heyətinin sədri, Dünya Xəbər Agentlikləri Konqresi və Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının prezidenti Aslan Aslanov iştirak edib.

Tədbirdə Böyük Britaniya Krallığının vəliəhdi, Uels şahzadəsi Çarlz AZƏRTAC da daxil olmaqla bir qrup media rəhbəri ilə görüşüb, mətbuatın inkişafında texnoloji yeniliklərlə maraqlanıb.

Press Association agentliyinin icraçı direktoru, Dünya Xəbər Agentlikləri Konqresi Şurasının sədri Klayv Marşal çıxışında qeyd edib ki, ötən əsr ərzində mediada çox böyük irəliləyişlər olub. "Bizim agentlik də yarandığı andan ötən 150 il ərzində dəyişib, texnologiyalar işimizin bir hissəsinə çevrilib. Lakin dəyişməyən bizim dürüstlüyümüz və obyektivliyimiz olub. Bu da bizim etibarlı media kimi imicimizin yüksək olmasını şərtləndirib", - deyə o bildirib.

Xəbər agentlikləri rəhbərləri ilə görüşlərdə onlara Azərbaycanda keçirilən beynəlxalq tədbirlər, o cümlədən bu ilin oktyabrında planlaşdırılan Bakı Beynəlxalq Humanitar Forumu barədə məlumat verilib.

AZƏRTAC və Press Association 2008-ci ildən Avropa Xəbər Agentlikləri Alyansı çərçivəsində, sonradan isə Dünya Xəbər Agentlikləri Konqresi Şurasında əməkdaşlıq edir. Press Association 2016-cı ilin noyabrında Bakıda keçirilən Dünya Xəbər Agentliklərinin V Konqresinin təşkilati işində yaxından iştirak edib. İki agentlik arasında qarşılıqlı faydalı əlaqələr mövcuddur.

**AZƏRTAC**

# Azərbaycan-Niderland arasında ticarət dövriyyəsində ötən il 53 faiz artım olub

**Azərbaycan-Niderland arasında ticarət dövriyyəsində ötən il 53 faiz artım olub.**

İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, bu barədə iqtisadiyyat naziri Şahin Mustafayev Niderland Krallığı Senatının sabiq sədri, Niderland-Azərbaycan Dostluq Qrupunun rəhbəri Rene Van der Linden ilə görüşündə deyib.

Nazir Şahin Mustafayev Rene Van der Lindenin Azərbaycanın yaxın dostu olduğunu, Azərbaycan-Niderland əlaqələrinin inkişafı istiqamətindəki fəaliyyətini vurğulayıb. Qeyd olunub ki, ölkələrimiz arasında dostluq və əməkdaşlıq əlaqələrinin inkişafındakı xüsusi xidmətlərinə görə Van Der Linden Azərbaycan Respublikasının Prezidenti tərəfindən "Dostluq" ordeni ilə təltif edilib. Azərbaycan və Niderland arasında əlaqələrin iqtisadiyyatın müxtəlif sahələri ilə yanaşı, təhsil sahəsini də əhatə etdiyini diqqətə çatdıran Şahin Mustafayev Azərbaycan Diplomatik Akademiyası və Maastrixt İdarəetmə Məktəbi arasındakı əməkdaşlığın digər sahələrdə də əlaqələrin inkişafında əhəmiyyətini vurğulayıb. Azərbaycan-Niderland iqtisadi əlaqələri barədə danışan nazir Şahin Mustafayev ölkələrimizin kənd təsərrüfatı, sənaye, kimya, ekologiya və sair sahələrdə əməkdaşlıq etdiyini, ticarət dövriyyəsinin 2017-ci ildə 53 faiz artdığını, qarşılıqlı investisiya qoyuluşlarının çoxaldığını və Azərbaycanda Niderland şirkətlərinin aktiv fəaliyyət göstərdiyini diqqətə çatdırıb. Bildirib ki, bu günlərdə istifadəyə verilən Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin Baş Planı və ümumi layihəsi Niderlandın "Royal Haskoning" şirkəti tərəfindən hazırlanıb və Azərbaycan limanın genişləndirilməsi sahəsində bu şirkətlə əməkdaşlığı davam etdirmək niyyətindədir.



**AZƏRTAC**

# Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi Samuxda vətəndaşları qəbul edib

**Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, general-leytenant Arzu Rəhimov Samux rayonunda Gəncə, Mingəçevir, Naftalan şəhərlərindən və Samux, Goranboy, Göygöl və Daşkəsən rayonlarından olan sakinləri qəbul edib.**

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, qəbulda 50-yə yaxın vətəndaş iştirak edib. Vətəndaşların müraciətləri daha çox Xidmətin aidiyyəti şöbə və bölmələrində işə və ya həqiqi hərbi xidmətə qəbul, övladlarının gələcək xidmət yerinin müəyyənləşdirilməsi, eləcə də veteran adının və vəsiqəsinin verilməsinə dair olub.



Qəbul zamanı irəli sürülən bəzi məsələlər yerindəcə həllini tapıb, qanunvericiliyin tələbləri vətəndaşlara izah edilib. Araşdırılması tələb olunan müraciətlər nəzarətə götürülüb.

**AZƏRTAC**

# Azərbaycan XİN Laçının işğalının 26-cı ildönümü ilə əlaqədar açıqlama yayıb

**Azərbaycan Respublikasının Laçın rayonunun işğalının 26-cı ildönümü ilə əlaqədar Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev açıqlama yayıb.**

AZƏRTAC-a daxil olan açıqlamada deyilir: Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı hərbi təcavüzünün davamı kimi 1992-ci il mayın 18-də keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin tərkibinə daxil olmayan Laçın rayonu işğal edilib. İşğal nəticəsində Laçın rayonunun əhalisi etnik təmizləməyə məruz qalıb və hazırda 77 min nəfərdən artıq Laçın sakini Azərbaycanın müxtəlif bölgələrində məcburi köçkün kimi yaşayır. Ermənistan tərəfindən rayonda dövlət və özəl mülkiyyətə ciddi zərər yetirilib. Belə ki, 217 mədəniyyət, 101 təhsil, 142 səhiyyə müəssisəsi, 462 ticarət, 30 rabitə, 2 avtonəqliyyat və müxtəlif təyinatlı istehsal müəssisələri talan və məhv edilib.

54 dünya, 200-dən çox yerli əhəmiyyətli tarixi abidə vandalizmə məruz qalıb. VI əsrə aid Alban Ağoğlan məbədi, XIV əsrə aid Məlik Əjdər türbəsi, Qaraqışlaq kəndində məscid, Zabux kəndində qədim qəbiristanlıq bunların sırasındadır. Laçın Tarix Muzeyi və onun qızıl, gümüş və tunc sikkələrdən ibarət qədim kolleksiyası talan edilib. Həmçinin talan edilmiş Laçın Tarix Muzeyinin eksponatı olan gümüş əl çantası Londonda Sothebys auksionunda 80 min ABŞ dollarına satılıb.

Ermənistan işğalçı tərəf olaraq Cenevrə Konvensiyaları ilə üzərinə düşən öhdəliklərini kobud şəkildə pozaraq, Laçın rayonunda coğrafi adların dəyişdirilməsi, rayonun təbii resurslarının talan edilməsi və qazanc mənbəyinə çevrilməsi, əsasən Suriyadan olan erməni əsilli qaçqınlar olmaqla, məqsədyönlü məskunlaşma siyasəti apararaq, demoqrafik tərkibin dəyişdirilməsi kimi qeyri-qanuni əməllərini davam etdirir.

Avropa İnsan Hüquqları Məhkəməsi "Çıraqov və digərləri Ermənistana qarşı" işi üzrə Azərbaycanın Laçın rayonundan məcburi qovulmuş Azərbaycan vətəndaşlarının xeyrinə qərar qəbul edərək, onların İnsan Hüquqları və Fundamental Azadlıqların qorunmasına dair Konvensiya üzrə mülkiyyət hüququ, şəxsi və ailə həyatına hörmət kimi hüquqlarının pozulduğunu təsbit edib. Həmçinin qərarın 19-20-ci paraqraflarında Laçın rayonu, xüsusən Laçın şəhərinin hərbi hücuma məruz qalması, 1992-ci il may ayının ortalarında Laçının havadan bombardman edilməsi və bunun nəticəsində çoxlu sayda evlərin dağıdılması, şəhərin talan edilməsi və yandırılması, hərbi münaqişə dövründə Laçın və ətraf kəndlərin tamamilə dağıdılması öz təsdiqini tapıb.

Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin və ətraf rayonların Ermənistan silahlı qüvvələri tərəfindən işğalı, işğal olunmuş rayonların azərbaycanlı sakinlərinə qarşı etnik təmizləmənin törədilməsi Ermənistanın əsl niyyətinin hərbi təcavüz və işğal yolu ilə ərazi əldə edilməsi olduğunu qabarıq şəkildə nümayiş etdirir.

Ermənistanın kəskinləşən hərbi təcavüzü şəraitində BMT-nin Təhlükəsizlik Şurası 1993-cü ildə 822 (1993-cü il), 853 (1993-cü il), 874 (1993-cü il) və 884 (1993-cü il) saylı qətnamələri qəbul edərək, Azərbaycan ərazilərinin işğalını pisləyib, Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini və Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz hissəsi olduğunu bir daha təsdiq edərək işğalçı qüvvələrin zəbt olunmuş ərazilərdən dərhal, qeyd-şərtsiz və tam çıxarılmasını tələb edib. Ermənistan BMT Təhlükəsizlik Şurasının qətnamələrinin tələblərini yerinə yetirməyərək işğal olunmuş Azərbaycan ərazilərinin ilhaq edilməsinə (anneksiya) yönəlmiş siyasət yürüdür.

Beynəlxalq hüququn imperativ normaları və BMT Nizamnaməsinə zidd olaraq Ermənistan tərəfindən Azərbaycana qarşı qeyri-qanuni gücdən istifadənin, həmçinin Azərbaycanın işğal olunmuş ərazilərindən 700 mindən artıq köklü Azərbaycan əhalisinin zorla qovulması ilə onların fundamental hüquq və azadlıqlarının kütləvi pozulmasının nəticələrinin Ermənistan tərəfindən Azərbaycanın Dağlıq Qarabağ bölgəsində yaşayan sayı 90 mindən az olan erməni azlığın "öz müqəddəratını təyin etmək" və "insan hüquqları" kontekstində təqdim etmək cəhdləri cəfəngiyatdır və heç bir mənəvi, hüquqi və siyasi çərçivəyə sığmır.

Ermənistan nəhayət başa düşməlidir ki, Azərbaycan ərazilərinin işğal altında saxlanması heç zaman Ermənistanın güddüyü siyasi nəticələri verə bilməz və işğala əsaslanan status-kvo Ermənistanın özünü təcridinin və bugünkü sistematik sosial-iqtisadi və demoqrafik böhranının əsas səbəblərindəndir. Azərbaycan ərazilərinin işğalına son qoyulması və Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılması hərtərəfli regional əməkdaşlıq üçün imkanlar aça və davamlı sülhün təmin olunmasına töhfə verə bilər.

Azərbaycan Respublikasının ərazi bütövlüyü və suverenliyinin bərpa edilməsi Laçın, habelə ölkənin digər işğal olunmuş rayonlarından olan məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtmaq kimi hüquqlarının təmin edilməsi və ümumilikdə münaqişənin ağır fəsadlarının aradan qaldırılması beynəlxalq ictimaiyyətinin öhdəliyi olmaqla yanaşı, BMT Nizamnaməsində təsbit edildiyi kimi, Azərbaycan dövlətinin şəksiz ayrılmaz hüququdur.

Azərbaycan tərəfi münaqişənin tezliklə həlli istiqamətində beynəlxalq səylərin artırılmasını dəstəkləyərək, beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyü və suverenliyini və vətəndaşlarının pozulmuş hüquqlarını bərpa etmək hüququnu özündə saxlayır.

**AZƏRTAC**

*İnam KƏRİMOV:*

# "QARABAĞ ATLARI CIDIR DÜZÜNDƏ YENƏ DƏ ÇAPACAQ"

**Regionlara səfər çərçivəsində nazir İnam Kərimov Ağcabədi rayonunun Xamtorpaq ərazisində yerləşən Ağdam atçılıq təsərrüfatında inşa edilən müasir atçılıq kompleksi ilə tanış olub. Təsərrüfatda bəslənilən atların saxlanma şəraiti ilə maraqlanıb.**



"Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan bayrağı tezliklə Şuşada dalğalanacaq və Qarabağ atları Cıdır düzündə yenə də çapacaq", - deyə İnam Kərimov vurğulayıb.

Bu barədə məlumatı nazirliyin mətbuat xidməti yayıb.

**Nəriman CAVADOV,**
**"Respublika".**

# BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində olub

**Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev mayın 17-də BMT-nin Azərbaycan Respublikasındakı rezident əlaqələndiricisi və İnkişaf Proqramının rezident nümayəndəsi Qulam İshaqzai ilə görüşüb.**

Dövlət Komitəsindən AZƏRTAC-a bildirilib ki, Azərbaycanın qazandığı uğurlardan, ölkəmizdəki qaçqın və məcburi köçkün problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərdən danışan Rövşən Rzayev Azərbaycanın beynəlxalq təşkilatlarla qarşılıqlı əməkdaşlığa xüsusi önəm verdiyini qeyd edib. Bildirib ki, qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həlli Azərbaycan Prezidenti İlham Əliyevin daim diqqət mərkəzindədir. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə bu istiqamətdə ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir. Azərbaycanda bir milyondan çox qaçqın və məcburi köçkünün olmasına baxmayaraq, ölkəmizin iqtisadiyyatı sürətlə inkişaf edir.



Qeyd edilib ki, müstəqilliyinin ilk illərindən qaçqın və məcburi köçkün problemi ilə üzləşən Azərbaycan yurd-yuvasından didərgin düşmüş insanların bir çox çətinliklərinin həllinə nail olub. Dünyada qaçqın və məcburi köçkün probleminin dövlət tərəfindən həll olunmasından söz düşəndə, ilk növbədə, Azərbaycan nümunə göstərilir. Bir sıra nüfuzlu beynəlxalq təşkilatların rəhbərləri tərəfindən Azərbaycanın təcrübəsinin dünyanın bir çox ölkələri üçün nümunə olduğu dəfələrlə vurğulanıb. Bütün bunlara baxmayaraq, məcburi köçkünlərin problemlərinin həlli istiqamətində hələ də görüləsi işlər var.

Dövlət Komitəsinin sədri münaqişə nəticəsində doğma yerlərindən didərgin salınmış soydaşlarımızla bağlı BMT agentliklərinin həyata keçirdikləri humanitar və inkişaf layihələrini xatırladıb, dəstəyə görə təşəkkürünü bildirib.

BMT ilə Dövlət Komitəsi arasında əməkdaşlığı yüksək qiymətləndirən Qulam İshaqzai mövcud olan sıx və səmərəli münasibətlərin daim inkişaf edəcəyinə əminliyini ifadə edib. O, Azərbaycanda qaçqın və məcburi köçkün probleminin dövlət tərəfindən həll olunması məsələsinə toxunaraq dünyada belə bir nümunənin çox az olduğunu bildirib. Qulam İshaqzai BMT-nin Azərbaycan xalqının rifahı və təhlükəsiz gələcəyi naminə qarşılıqlı əməkdaşlığı davam etdirməyə hazır olduğunu söyləyib.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, qaçqın və məcburi köçkünlərin problemləri, onların həyat şəraiti, eyni zamanda, gələcək əməkdaşlığın perspektivləri ilə bağlı müzakirələr aparılıb.

**AZƏRTAC**

# Milli Azərbaycan polisinin yaranması və fəaliyyəti

**Bəşəriyyətin malik olduğu çoxəsrlik tarixi təcrübə sübut edir ki, dövlətçiliyin qorunub saxlanılmasında, ictimai qaydanın və insanların təhlükəsizliyinin təmin edilməsində hüquq-mühafizə orqanlarının müstəsna rolu vardır. Zəngin dövlətçilik təcrübəsinə malik olan ulu öndər Heydər Əliyev bu məqamı xüsusi vurğulayaraq deyirdi: "Hüquq-mühafizə orqanları dövlətin çox əhəmiyyətli bir hissəsidir. Heç bir xalq dövlətçiliyini belə orqanlar olmadan saxlaya bilməz".**

XIX əsrin birinci yarısından etibarən Rusiya imperiyasının apardığı təcavüzkar siyasət nəticəsində Şimali Azərbaycan ərazisi işğal edildi. 1840-cı il aprelin 10-da verilmiş "Zaqafqaziyada inzibati və məhkəmə islahatlarının keçirilməsi haqqında" qanuna əsasən, Cənubi Qafqaz diyarına ümumrusiya idarəetmə sistemi tətbiq edilmiş, quberniya, qəza və sahə ərazi-inzibati bölgüləri yaradılmışdır. Elə həmin tarixdə qəbul olunan "Zaqafqaziya diyarının idarə olunması üçün ali təsdiqnamə" və "Şəhər polisləri haqqında" əsasnaməyə uyğun olaraq Azərbaycanın böyük şəhərlərində polis idarələri yaradılmışdı. Beləliklə, Azərbaycanda klassik mənada polis xidməti meydana gəlmişdi. Çar Rusiyasının yaratdığı polis orqanları 1917-ci il fevral inqilabına qədər mövcud olmuşdur.

Azərbaycan dövlətçiliyinin inkişafının zirvə nöqtəsini təşkil edən Azərbaycan Xalq Cümhuriyyətinin təsis edilməsi müxtəlif dövlət strukturları ilə yanaşı, milli hüquq-mühafizə orqanlarının yaradılmasına da təkan verdi.

Ölkədə ictimai asayişi, qanunçuluğu və hüquq normalarını qoruyan dövlət orqanı kimi 1918-ci il mayın 28-də Azərbaycan Milli Şurasının qərarı ilə Fətəli xan Xoyski tərəfindən Tiflisdə təşkil edilmiş birinci Azərbaycan hökumətinin tərkibində Daxili İşlər Nazirliyi təsis edildi. Bu vəzifənin ilk icraçısı baş nazir Fətəli xan Xoyski olmuşdur.

Azərbaycan Xalq Cümhuriyyətinin birinci hökumət kabineti 1918-ci il iyun ayının 16-na kimi Tiflisdə fəaliyyət göstərdiyindən DİN-in aparıcı struktur qurumu olan polis orqanlarının yaradılması bir qədər sonraya təsadüf etmişdir.

1918-ci il iyunun 24-də hökumət tərəfindən verilmiş "Hökumət müəssisələrinin öz vəzifələrini tərk etmiş qulluqçuları haqqında" 178 saylı qərara əsasən 1918-ci il iyulun 2-də Yelizavetpol (Gəncə) quberniyasında ilk milli nizami polis orqanları yaradılaraq onların yeni ştatları təsdiq edildi.

Milli Azərbaycan polisinin yaranmasından 80 il sonra ulu öndər Heydər Əliyev 24 may 1998-ci il tarixli fərmanla tarixi ədaləti bərpa edərək müstəqil Azərbaycanda polis orqanlarının faktiki yaradılması tarixi kimi məhz həmin günü - 2 iyulu Azərbaycan Polisi Günü elan etmişdir.

1918-ci il sentyabrın 15-də Azərbaycan-türk hərbi birləşmələri Bakını daşnak və eser-menşevik hərbi qüvvələrindən azad etdikdən sonra Cümhuriyyət Hökuməti Bakıya köçdü, DİN-in fəaliyyət dairəsi daha da genişləndi.

Behbud xan Cavanşirin nazirliyə rəhbərlik etdiyi birinci dövrdə Osmanlı qoşunlarının Azərbaycanda olması, hərbi hakimiyyətin Nuru paşanın əlində cəmləşməsi DİN-in mürəkkəb şəraitdə fəaliyyət göstərməsinə səbəb olmuşdu. Xüsusilə, türk komandanlığının daxili siyasət məsələlərinə müəyyən dərəcədə müdaxilə etməsi DİN-in üzərinə düşən funksiyaları tam həyata keçirməsini çətinləşdirirdi. Bu dövrdə ölkədəki anarxiyanın qarşısının alınması, qanunçuluğun və təhlükəsizliyin təmin edilməsi Daxili İşlər Nazirliyi ilə yanaşı, paralel olaraq hökumətin 1918-ci il iyunun 19-da qəbul etdiyi hərbi vəziyyət haqqındakı qərara uyğun olaraq hərbi qüvvələr tərəfindən də həyata keçirilirdi.

Daxili İşlər Nazirliyi tərəfindən 1918-ci il iyunun 23-də işlənib hazırlanmış məcburi qərara əsasən müxtəlif hüquqpozmalara qarşı mübarizə aparmaq üçün hakimiyyət orqanları arasında səlahiyyətlər bölünmüşdü.

1918-ci ilin dekabrında təşkil edilən üçüncü hökumət kabinetində daxili işlər naziri vəzifəsinin Xəlil bəy Xasməmmədova həvalə olunması nazirliyin fəaliyyətində yeni - ikinci dövrün başlaması hesab edilir. Bu dövrdə bir sıra ciddi struktur dəyişikliklərinə məruz qalan nazirlik bir tərəfdən, təşkilati işləri, digər tərəfdən isə, xarici dövlətlərin ölkənin daxili işlərinə müdaxiləsini dəf etmək istiqamətində tədbirlərini gücləndirdi.

Göstərilən dövrdə DİN-in fəaliyyətini təkmilləşdirmək üçün bir sıra təşkilati tədbirlər həyata keçirildi. 1919-cu il aprelin 8-də və mayın 26-da DİN-in yerli idarələrinin ştat cədvəli, onların əməkhaqlarının artırılması barədə qanun layihələri Azərbaycan Parlamentində müzakirə edilərək təsdiq olundu.

Azərbaycan Xalq Cümhuriyyəti DİN-in fəaliyyətinin üçüncü dövrü 1919-cu il aprelin 14-də 4-cü Hökumət kabinetinin təşkil olunduğu və hökumətin sədri Nəsib bəy Yusifbəylinin eyni zamanda daxili işlər naziri vəzifəsini tutduğu dövrə təsadüf edir.

Bu dövrdə polis orqanlarının fəaliyyətinin təkmilləşdirilməsində, qanunçuluq prinsipinə, intizama ciddi əməl edilməsində nazirlik tərəfindən hazırlanmış və 1919-cu il 16 aprel tarixli əmrlə elan edilmiş təlimat mühüm əhəmiyyət daşımışdır. N.Yusifbəylinin hökumətə başçılıq etdiyi bu dövr həm də ağqvardiyaçı general Denikinin başçılıq etdiyi Könüllü Ordunun Gürcüstan və Azərbaycanın suverenliyinə təhlükə yaratması ilə əlamətdar olmuşdur. Azərbaycan dövlətinin ərazi bütövlüyünün, suverenliyinin qorunması istiqamətində həmin dövrdə DİN-in təklifi ilə bir sıra təşkilati tədbirlər həyata keçirildi. İlk növbədə, ölkənin müdafiəsinin daha etibarlı şəkildə təşkil edilməsi məqsədilə DİN-in təklifi əsasında Dövlət Müdafiə Komitəsi yaradıldı. Paralel olaraq, Bakı və ətraf sənaye rayonlarının daha etibarlı mühafizəsi üçün Bakı Şəhər Rəisliyi təsis olundu, Bakı Şəhər Polisinin ehtiyat qüvvələri təşkil edildi.

Həmin dövrdə Azərbaycan vətəndaşlarının həqiqi hərbi xidmətə çağrılmasını



təmin edən əxzi-əsgər idarələri də bilavasitə DİN-in tabeliyində olmuşdur. Bu məqsədlə hərbi çağırış işinin hüquqi əsaslarını müəyyən edən "Azərbaycan Xalq Cümhuriyyətində hərbi çağırışın icrası haqqında" Azərbaycan Parlamentinin 26 may tarixli qanununa uyğun olaraq, hərbi çağırış barədə Əsasnamə təsdiq olunmuşdu.

Qeyd etmək lazımdır ki, Qərbdəki demokratik əsaslara uyğun olaraq, torpaqların idarəçilik formasının tamamilə yenidən qurulmasını nəzərdə tutan, torpaq məsələləri ilə məşğul olan idarələr haqqında Əsasnamə də DİN tərəfindən hazırlanmış və Parlamentə təqdim olunmuşdu.

Ümumiyyətlə, Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu dövrdə polis orqanlarının maddi-texniki bazasının möhkəmləndirilməsi, Daxili İşlər Nazirliyinə əlavə ştat vahidlərinin verilməsi, polis əməkdaşlarının əməkhaqlarının yüksəldilməsi üçün davamlı şəkildə səmərəli və məqsədyönlü tədbirlər həyata keçirilmişdir. Təkcə onu demək kifayətdir ki, bir il ərzində - 1918-ci il dekabrın 7-dən 1919-cu il dekabrın 25-dək ölkə parlamenti tərəfindən Daxili İşlər Nazirliyinə dair 24 qanun müzakirə edilmiş və qəbul olunmuşdu. Daxili İşlər Nazirliyinin mərkəzi və yerli orqanlarının təşkilati və struktur cəhətdən təkmilləşdirilməsi üçün Azərbaycan hökuməti malik olduğu imkanlar çərçivəsində 1918-1920-ci illərdə nazirliyə ayrılan maliyyə-büdcə xərclərini müntəzəm şəkildə artırmış, peşəkar, milli polis kadrlarının hazırlanması məqsədilə 1918-ci il sentyabrın sonu - oktyabrın əvvəllərində Bakıda İçərişəhərdə polis məmurları hazırlayan (qorodovoy) məktəbləri açılmışdır.

Cümhuriyyət dövründə milli polisin fəaliyyətinin əsasını təşkil edən hüquqi-normativ bazanın, regional polis strukturlarının, polis kadrları hazırlayan tədris müəssisələrinin yaradılması, ümumilikdə isə bu sahənin təkmilləşdirilməsi üçün geniş islahatların həyata keçirilməsi kimi mühüm işlər görkəmli alim-tədqiqatçı, dövlət xadimi, general-mayor Sadıq bəy Ağabəyzadənin adı ilə bağlıdır.

1918-ci ilin oktyabrından 1919-cu ilin dekabr ayınadək nazir müavini vəzifəsində çalışmış, bir müddət isə daxili işlər nazirinin vəzifəsini icra etmiş Sadıq bəy Ağabəyzadənin gərgin əməyi nəticəsində Azərbaycan polisinin fəaliyyətini tənzimləyən normativ sənədlər qəbul edilmişdi. Sadıq bəyin təşəbbüsü ilə Rusiya imperiyasının "Polis idarələrinin təşkili haqqında", "Polis departamentləri haqqında", "Ümumi, qəza və şəhər polisi haqqında" müvafiq qanunlar müəyyən dəyişikliklərlə polisin fəaliyyəti üçün əsas götürülmüşdü.

Azərbaycan Xalq Cümhuriyyətinin polis orqanlarında islahatlar konsepsiyasının hazırlanması və həyata keçirilməsi də Sadıq bəy Ağabəyzadənin adı ilə bağlıdır. Polisin fəaliyyətinin təkmilləşdirilməsi, neqativ halların, habelə xarici müdaxilənin nəticələrinin aradan qaldırılması məqsədi güdən bu islahatlar üç mərhələdə həyata keçirilmişdir. İslahatların 1918-ci ilin iyul-dekabr aylarını əhatə edən birinci dövründə polis orqanlarının milliləşdirilməsi, daxili işlər orqanlarının idarə edilməsi üçün kadrların hazırlanması, polis orqanlarının bütün strukturlarının yenidən bərpa edilməsi kimi mühüm tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdu.

1918-ci ilin dekabrından 1919-cu ilin martına qədər olan dövrdə isə polisin daxili təşkilati məsələlərinin həlli, Bakı polisinin Müttəfiq dövlətlərinin müvəqqəti Komissarlığı ilə siyasi və transmilli cinayətkarlığa qarşı mübarizədə əməkdaşlığı və birgə fəaliyyətin koordinasiyası kimi xeyli mühüm tədbirlər həyata keçirilmiş və mühüm uğurlar əldə edilmişdi.

Azərbaycan Xalq Cümhuriyyətində polisin fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində aparılan islahatların 1919-cu ilin aprelindən dekabrına qədər olan dövrünü əhatə edən sonuncu - üçüncü mərhələsində daha geniş əhatəli məsələlərin həlli həyata keçirilmişdir. Məhz bu dövrdə müttəfiq qoşunlarının nəzarətində olan Bakı və Balaxanı-Sabunçu polisinin yenidən DİN-ə tabe etdirilməsi prosesi gerçəkləşdirilmişdi.

Həyata keçirilən struktur dəyişikliyinə uyğun olaraq, 1919-cu il martın 20-də verilmiş qərarla DİN-in yeni ştatı müəyyənləşdirilmiş, DİN-in yanında vahid dəftərxana yenidən bərpa edilmişdi. Bu qərarın tələblərinə uyğun olaraq, polis qüvvələrinin ölkənin regionları üzrə bölüşdürülməsində mövcud olan qeyri-sabitlik də nəzərə alınmış, bütün əyalət polis bölmələrinin keyfiyyət standartı müəyyən edilmişdi. Qərara əsasən, əyalət polis bölmələrinin 320 nəfərdən ibarət olan şəxsi heyətinin 225 nəfərini piyada, 95 nəfərini isə süvari polislər təşkil edirdi. Aparılan ciddi struktur dəyişikliklərinə uyğun olaraq, 1919-cu il iyunun 11-də DİN-in yanında İctimai Təhlükəsizlik Şöbəsi də yaradıldı.

Rəhbər polis kadrlarının vəzifə səlahiyyətlərinin icrası, habelə əxlaqi davranışları üzərində nəzarəti həyata keçirmək məqsədilə 1919-cu il sentyabrın 16-da Daxili İşlər Nazirliyində Xüsusi İnspeksiya Şöbəsi (Polis Müfəttişliyi) təsis edilmişdi. Polis müfəttişliyi rəisi bilavasitə daxili işlər nazirinə, müfəttişlər və dəftərxana isə rəisə tabe idi. Müfəttişlik ildə bir dəfədən az olmayaraq, Daxili İşlər Nazirliyinin bütün idarələrini və nazirliyin vəzifəli şəxslərinin fəaliyyətini yoxlayır, vəzifə cinayətlərini aşkar edir və araşdırırdı. Hökumətin 14 fevral 1919-cu il tarixli qərarı ilə baş verən cinayətlərin istintaqını və əməkdaşların xidməti vəzifələrindən sui-istifadə etmələrinə qarşı mübarizə aparmaq məqsədilə daxili işlər naziri yanında Təftiş-İstintaq Komissiyası da yaradılmışdı.

Dövlət strukturlarının səlahiyyət bölgüsünün təkmilləşdirilməsində qabaqcıl Avropa təcrübəsindən istifadə edən Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının 11 avqust 1919-cu il tarixli qərarı ilə bütün həbsxanalar Daxili İşlər Nazirliyinin tabeçiliyindən çıxarılaraq Ədliyyə Nazirliyinə verilmişdi.

Sadıq bəy Ağabəyzadənin rəhbərliyi ilə polis əməkdaşlarının rütbələrinin təsnifat sistemi işlənib hazırlanmışdı. Həmin təsnifata uyğun olaraq, artıq 1919-cu ilə ümumi sayı 9661 nəfərə çatan polislərdən 498-i 1-ci, 5089-u isə 2-ci rütbəli şəhər polisi, 242-si 1-ci rütbəli post polisi, 243-ü isə 2-ci rütbəli post polisi idi.

Azərbaycan Xalq Cümhuriyyətinin hakimiyyəti dövründə Azərbaycan polisinin məharət dərəcəsini, əmək stajını və rütbəsini göstərən xüsusi nişanları olan xidməti geyim forması da hazırlanmışdı.

Beləliklə, 1919-1920-ci illər ərzində həyata keçirilən islahatlar proqramı çərçivəsində Azərbaycan daxili işlər orqanlarında mühüm struktur dəyişiklikləri aparılmaqla demokratik dəyərlərə əsaslanan milli polis formalaşdırıldı.

Milli Azərbaycan polisi həmin dövrdə Azərbaycan dövlətinin məruz qaldığı təhlükələrə - erməni millətçilərinin Qarabağ, Zəngəzur, Qazax bölgələrində həyata keçirdikləri qanunsuz əməllərə, milli qırğın siyasətinə qarşı ordu qüvvələri ilə birlikdə barışmaz mübarizə aparmış, xalqın və dövlətin mənafeyinin qorunması üçün bütün imkanlarından istifadə etmişdir. 1919-cu il 17 fevral tarixli qərarla Qazax qəzasında azərbaycanlı, erməni və gürcü millətləri arasında yaranmış münaqişələri tənzimləmək və bu sahədə yerli hakimiyyət orqanlarının fəaliyyətini müşahidə etmək məqsədilə Daxili İşlər Nazirliyinin fövqəladə müvəkkili vəzifəsinin təsis edilməsi, həmin dövrdə polis qüvvələrinin ölkədə baş verən heç bir mühüm prosesdən kənarda qalmadığını göstərir.

Azərbaycan Xalq Cümhuriyyəti Daxili İşlər Nazirliyinin şəxsi heyəti daxili sabitliyin bərpa edilməsi, ictimai təhlükəsizlik və ictimai asayişin qorunması kimi vəzifələrlə yanaşı, vətən torpaqlarının erməni təcavüzündən qorunması istiqamətində də mühüm işlər görmüşlər. Cümhuriyyətin ən gənc naziri olan daxili işlər naziri Mustafa bəy Vəkilov 1920-ci ilin ağır mart günlərində - erməni xəyanətkarlığının tüğyan etdiyi dövrdə öz nazir kabinetində qərar tuta bilməmiş, hadisələrin qaynar nöqtəsinə - Qarabağa getmiş, on günə yaxın orada qalmışdı.

70 il sonra - Qarabağ torpaqları yenidən erməni təcavüzünə məruz qaldıqda silaha sarılaraq vətənin müdafiəsinə qalxan, xain düşmənlə ölüm-dirim savaşına girən Azərbaycan polisi öz sələfinin layiqli davamçısı olduğunu, xalqa və dövlətçiliyə xidmət kimi şərəfli bir işi nümunəvi varislik ənənələri üzrə davam etdirdiyini bir daha sübut etdi.

Dövlətçilikdə varislik ənənələrinə xüsusi diqqət yetirən ümummilli lider Heydər Əliyev demişdir: "Müstəqil Azərbaycan Respublikası 1918-ci ildə yaranmış Xalq Cümhuriyyətinin varisidir". Məhz bunu nəzərə alan ulu öndər Azərbaycan polisinin də Cümhuriyyət polisinin varisi olması həqiqətini rəsmiləşdirmişdir.

**Rəşad QASIMOV,**
**DİN Polis Akademiyası İctimai elmlər kafedrasının baş müəllimi, polis kapitanı.**

# Ulu öndər Heydər Əliyevin xatirəsi yad edildi



İmişli rayonunda ümummilli lider, dahi şəxsiyyət Heydər Əliyevin anadan olmasının 95 illik yubileyi ilə bağlı geniş tədbir keçirildi. Bununla yanaşı İmişlidə ilk dəfə olaraq ASAN SƏYYAR QATAR əhaliyə xidmət göstərmək üçün rayon dəmiryol vağzalında dayanmışdır.

Mərasim başlamazdan öncə rayon icra hakimiyyətinin başçısı Vilyam Hacıyev, fəallar və ictimaiyyət nümayəndələri, Ulu öndərin əziz xatirəsinə dərin ehtiramlarını bildirərək abidəsi önünə gül-çiçək düzdülər.

Rayon Mədəniyyət Mərkəzində başlayan rəsmi mərasimdə çıxış edən RİH başçısı Vilyam Hacıyev bildirdi ki, 1969 - cu ildə Heydər Əliyevin Azərbaycana rəhbərliyə irəli çəkilməsi onu deməyə tam əsas verir ki, bu böyük dövlət xadiminin hakimiyyətə gəlişi mühüm tarixi zərurətdən doğub. Heydər Əliyevin Azərbaycana birinci dəfə rəhbərlik etdiyi 70-80-ci illər respublikamızın quruculuq salnaməsinə ən parlaq səhifə kimi daxil olmuşdur. Rayon rəhbəri qeyd etdi ki, Heydər Əliyev 1993-cü ildə xalqın tələb-təkidi ilə yenidən ölkə rəhbərliyinə qayıtmaqla respublikamızın dərin ictimai-siyasi və iqtisadi böhrandan çıxarılmasına, vətəndaş müharibəsinin qarşısının alınmasına, Azərbaycan dövlət müstəqilliyinin qorunmasına və möhkəmləndirilməsinə, dövlətimizin beynəlxalq aləmdə uğurlar qazanmasına nail olmuşdur.

Heydər Əliyev fəaliyyətinin 1993-2003-cü illəri də bir ömrün qızıl salnaməsidir. Azərbaycanda müstəqil dövlət təsisatlarının yaradılması, demokratik-hüquqi dövlət quruculuğunun əzmlə həyata keçirilməsi, vətəndaş cəmiyyətinin formalaşdırılması, milli təhlükəsizliyin təminatı və yeni iqtisadi kursun müəyyənləşdirilməsi şəxsən Heydər Əliyevin xalqı qarşısındakı əvəzsiz xidmətləridir.

Vilyam Hacıyev bildirdi ki, bu gün ulu öndərin müəyyənləşdirdiyi strateji inkişaf kursunu uğurla reallaşdıran onun siyasi varisi, layiqli davamçısı Prezident İlham Əliyevin ölkəyə rəhbərliyinin leytmotivi sistemlik, iqtisadi inkişafda dinamizm, beynəlxalq əməkdaşlıqda qarşılıqlı maraqlara əsaslanmaq, milli mənafelərin qorunması, xalqın rifahını yüksəltmək kimi mühüm vəzifələr təşkil edir. Mərasim bədii hissə ilə yekunlaşdı.

**Ərəstun ABDULOV,**
**"Respublika".**



# Ümummilli lider xalqın yaddaşında əbədi qalacaqdır



**10 may 1923-cü il Azərbaycan xalqı üçün çox önəmli və əziz bir gün kimi Azərbaycanın tarixinə yazılmışdır. Bu gün XX əsrin ən dəyərli və yaddaqalan tarixi günlərindən biridir.**

Keçən əsrin (1923) bu günündə, mayın 10-da Azərbaycan xalqının, dəyərli, dahi oğlu, ümummilli liderimiz, ulu öndər Əliyev Heydər Əlirza oğlu Naxçıvan şəhərində anadan olmuşdur. Bu tarix bütün Azərbaycan üçün bayram müjdəli bir tarixdir. Çünki keçən əsrin bu ilində və bu günündə gələcəkdə yeni Azərbaycanın yaradıcısı, banisi dünyaya göz açmışdır.

Tanrı Azərbaycan xalqına təkrarı olmayacaq bir şəxsiyyət bəxş etmişdir. Biz xoşbəxt bir xalqıq ki, bizim Heydər Əliyev kimi dahi bir şəxsiyyətimiz olub, var və həmişə də bizimlə olacaq. Nə qədər Azərbaycan var, o qədər də ulu öndərimiz yaşayacaqdır. Azərbaycan isə tarix boyu olacaqdır.

Dünyamız inkişaf dünyasıdır. Bizim ölkəmiz də bu inkişafdan geridə qalmamalı idi. Ona görə də ulu öndərimiz bütün bunları nəzərə alaraq, elə bir inkişaf proqramı hazırladı ki, ölkəmiz dünyadakı inkişaf tempindən nəinki geri qalmadı, hətta ondan da sürətlə inkişaf etməyə başladı. Bunun nəticəsi olaraq insanların həyat tərzi, yaşayış səviyyəsi zaman-zaman keçdikcə yüksəldi. Ulu öndərimizin apardığı məqsədyönlü siyasətin nəticəsi olaraq bütün dünya Azərbaycan dövlətini və Azərbaycan xalqını daha da yaxından tanıdı. O, bütün imkanlardan istifadə edirdi ki, onun ölkəsi sürətlə inkişaf etsin və xalqının yaşayış səviyyəsi, güzəranı yüksək olsun.

Bir məqamı qeyd etmək istərdim. Yəni o, xalqının, millətinin, dövlətinin yolunda apardığı bütün mübarizələrdə qələbə çalırdı və öz məqsədinə, istəyinə nail olurdu. O, öz xalqını, millətini çox sevirdi. Milli mənsubiyyəti ilə və azərbaycanlı olması ilə fəxr edirdi, tövsiyə edirdi ki, hər bir kəs, hər bir ölkə vətəndaşı öz millətini sevməli və milli mənsubiyyəti ilə fəxr etməlidir. Onun istəyi və məqsədi o idi ki, Azərbaycan ölkəsi inkişaf etmiş güclü ölkələr sırasında olsun. Ulu öndər bu istək və arzusuna da nail olmuşdur. Onun xalqına, millətinə olan sevgisi onun ilham mənbəyi idi. Çalışırdı ki, xalqının hər bir nümayəndəsi kiçik yaşlarından milli ruh, vətənə sevgi, vətənpərvərlik ruhunda tərbiyə alsınlar ki, gələcəkdə vətənə layiqli övladlar olsunlar.

Maraqlı bir fakta diqqət ayıraq. Bir çox dövlətlərin uzun illər ərzində keçdikləri inkişaf yolunu, bizim dövlətimiz ulu öndərin rəhbərliyi altında, onun uzaqgörənliyi, bacarığı, biliyi, siyasəti sayəsində qısa bir dövr ərzində keçə bilmişdir. Ölkəmizin inkişafa doğru belə sürətli dönüşü məhz ulu öndərin ölkəmizə rəhbərlik etdiyi dövrdən, yəni 1970-ci illərdən başlayır. Onun hər bir addımı, arzusu, istəyi, xalqın arzusu, diləyi, istəyi idi. O, gözəl bilirdi ki, xalq ona inanır və onun ardınca gedir. Xalq onu sevirdi, çünki o xalqını canından artıq sevirdi.

Xalq deyəndə Heydər Əliyev, Heydər Əliyev deyəndə xalq düşünürük. Bunlar bir-birindən ayrılmazdır. Harada olmasından asılı olmayaraq, o, xalqını düşünürdü. Çünki o, xalqa bağlı idi. O, çalışırdı ki, Azərbaycan güclü dövlət olsun. Dövlətin güclü olması üçün birinci növbədə onun savadlı, bilikli, yüksək siyasi biliklərə malik rəhbər kadrları olmalıdır. Ulu öndər bu məsələni daim gündəmdə saxlayırdı. Çalışırdı ki, onun rəhbərlik etdiyi dövlətdə rəhbər kadrlar savadlı, bilikli olsunlar. Bu məqsədlə də mütəmadi olaraq o, xüsusən də gəncləri xarici ölkələrə, dünya miqyasında tanınmış universitetlərə oxumağa göndərərək savadlı kadrların, mütəxəssislərin yetişməsinə nail oldu. Onun bu uzaqgörənliyi ölkəmizdə sürətli inkişaf tempinin qorunub saxlanmasına və hətta sürətlənməsinə şərait yaradırdı.

Heydər Əliyev elə bir zəkaya malik idi ki, heç kimi onunla müqayisə etmək mümkün deyil. O, istər ölkəmizdə, istərsə də xarici ölkələrdə keçirilən simpoziumlarda, konfranslarda etdiyi savadlı, məzmunlu çıxışları ilə bütün iştirakçıları heyran edirdi. Bütün dünya onu tanıyırdı. O, təkrarolunmaz güclü bir hafizəyə malik idi.

Azərbaycan xalqı öz rəhbəri ilə fəxr edirdi. Amma bir məsələ xalqı və onun ziyalılarını çox düşündürürdü. Nə vaxtsa belə bir dahini, ölkə başçısını, rəhbəri gələcək üçün əvəz edəcək bir kadr, şəxsiyyət olacaqmı? Çünki belə bir güclü rəhbərdən, siyasətçidən sonra ölkəyə başçılıq etmək çox çətin bir məsələ idi. Lakin dahi rəhbərimiz öz uzaqgörənliyi ilə bu məsələni də həll etdi. Ulu öndərin yetirməsi olan və onun məktəbini keçmiş cənab İlham Əliyev ölkənin inkişafı naminə öz yeni ideyaları ilə ulu öndərin işini layiqincə davam etdirməyə başladı. Bu gün Azərbaycanın inkişaf tempi göz qabağındadır.

Ulu öndər birinci dəfə ölkəyə başçılıq etdiyi dövrdə öz xalqı və ölkəsi üçün başladığı qələbə yürüşünü ikinci dəfə ölkəyə başçılığı zamanı tamamilə axıra çatdırdı və tam qələbə əldə edərək öz məqsədinə nail oldu. Bu onun, xalqının tarixi qələbəsi idi. Yəni, o, azad, demokratik yeni Azərbaycan yaratdı. Ona olan xalq sevgisi qəlblərdə elə dərin izlər buraxıb ki, ulu öndər xalqın yaddaşında ömürlük qalacaqdır. Nə qədər ki, dünyada Azərbaycan olacaqdır (bu isə daimidir), ulu öndər ürəklərdə yaşayacaqdır.

Bütün bu fikir və düşüncələrimi qısa da olsa, şeirlə də ifadə etmək istəyirəm.

*Sönməz günəş təki gəldi dünyaya,*
*Nurunu hər yana, o yaya-yaya*
*Şöləsin yayaraq bütün cahana,*
*Azadlıq gətirdi Azərbaycana.*
*Ürəyi Vətənlə, xalqla döyündü,*
*Onun zəfərinə daim öyündü.*
*Qələbə müjdəsin yayıb hər yana*
*Azadlıq gətirdi Azərbaycana.*
*Xalqın öz sevimli rəhbəri oldu,*
*Ürəklər, könüllər sevinclə doldu.*
*Xoş günlər bəxş etdi o, bu məkana*
*Azadlıq gətirdi Azərbaycana.*
*Nə qədər dünyada Azərbaycan var,*
*Ulu öndərimiz yaşayacaqdır.*
*Hər kəsin qəlbində onun yeri var,*
*Bu yerdə ömürlük o, qalacaqdır...*

**Siyavuş ŞAHMİROB,**
**Gənc Tamaşaçılar Teatrının əməkdaşı.**

# Dövlət Sosial Müdafiə Fondunda müşavirə

*Sahil Babayev: Fondun fəaliyyətində qısa müddətdə ciddi dönüşə nail olunmalı, sosial sığorta sistemi təkmil iş mexanizmlərinə əsaslanmalı, sosial təminat növləri üzrə əhaliyə xidmətlərdə şəffaflıq və sosial ədalət tam təmin edilməlidir*





**Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Nazirlik yanında Dövlət Sosial Müdafiə Fondunda sosial sığorta daxilolmaları və əhaliyə xidmətlər sahəsində mövcud vəziyyətin müzakirəsi, bu sahələrdə qarşıda duran vəzifələrin müəyyən olunması məqsədilə müşavirə keçirib.**

Nazirliyin ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, müşavirədə fondun fəaliyyətinin nəticələrinin qənaətbəxş olmadığını qeyd edən nazir diqqətə çatdırıb ki, sosial təminat növlərinin təyinatı ilə əlaqədar müraciət edən vətəndaşlara həssaslıqla yanaşılmalıdır. Onlara qanunla nəzərdə tutulan təminat növlərinin təyin edilməsi zamanı süründürməçiliyə yol verilməməlidir. Ölkəmizin özündə vətəndaş məmnunluğuna səbəb olan ASAN xidmət modeli mövcuddur ki, fondun yerli orqanlarında bu müasir, mədəni xidmət təcrübəsindən istifadə edilə bilər.

Sosial sığorta daxilolmaları ilə bağlı proqnozun icrasının Fondun fəaliyyətinin əsas məqsədlərindən olduğunu qeyd edən S.Babayev vurğulayıb ki, Fond həmin istiqamətdə fəaliyyətini gücləndirməli, eyni zamanda, bu proqnozların düzgün, reallığa əsaslanan şəkildə tərtib edilməsini də vacib şərt kimi diqqətdə saxlamalıdır. Debitor borcların yaranması hallarına yol verilməməli, sosial sığorta ödəyicilərinə münasibətdə subyektiv, qeyri-bərabər yanaşmaya son qoyulmalı, bütün səylər də qanunla ödənilməli olan sosial sığorta vəsaitlərinin ödənilməsinə yönəlmədilir.

Nazir, eyni zamanda, fərdi sahibkarların, torpaq mülkiyyətçilərinin çox az qisminin sosial sığorta sistemində iştirak etdiyini və onların da həmin sistemə cəlb olunması yönündə işlərin, habelə bu məqsədlə stimullaşdırıcı tədbirlərin gücləndirilməsinin zəruri olduğunu diqqətə çatdırıb. S.Babayev qeyd edib ki, ölkəmizdə pensiyaçıların sayının getdikcə artmasına uyğun olaraq, sosial sığorta haqları üzrə yığım səviyyəsi də getdikcə yüksəlməlidir.

Hazırda ünvanlı dövlət sosial yardımı sistemində təkmilləşdirmə işlərinin aparıldığını qeyd edən nazir bildirib ki, aktiv əmək bazarı proqramları vasitəsilə aztəminatlı ailələrin yoxsulluqdan çıxışına və kiçik biznesə sahib olmalarına imkan yaradılması da əsas fəaliyyət istiqamətlərindən biridir. Bu mənada özünüməşğulluq proqramına cəlb edilənlərin ən azı 50 faizi ünvanlı dövlət sosial yardımı alan ailələrin əmək qabiliyyətli üzvlərindən ibarət olmalıdır.

Sosial müavinətlər sahəsində müəyyən unifikasiya tədbirlərinin aparılmasının məqsədəuyğun ola biləcəyini diqqətə çatdıran S.Babayev bildirib ki, hazırda nazirlik 2,5 milyona qədər insana xidmət göstərir. Həmin insanlara göstərilən xidmətlərin vəziyyəti ictimai rəyə də əhəmiyyətli təsir göstərir. Bu baxımdan, əhaliyə xidmət səviyyəsinin daim şəffaf və sosial ədalət prinsipi üzərində təşkili, insanlara mədəni xidmətin göstərilməsi nazirliyin hər bir yerli qurumunun fəaliyyətində əsas istiqamət olmalıdır. Ümumilikdə, bu qurumlar "Sosial ev" modeli kimi fəaliyyət göstərməlidirlər.

Müşavirədə nazir Fondun fəaliyyət sahələrində mövcud problem və çatışmazlıqların aradan qaldırılması, idarəetmənin müasir və səmərəli təşkili, sosial sığorta daxilolmalarında əhəmiyyətli artımların təmin edilməsi, əhaliyə xidmətlərin tam şəffaflaşdırılması və bu sahədə vətəndaş məmnunluğuna nail olunması məqsədilə islahatlar proqramının hazırlanması barədə tapşırıq verib.

**Mustafa KAMAL,**
**"Respublika".**

# Müstəqil Azərbaycan Xalq Cümhuriyyətinin varisidir



**Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) və "Səs" media qrupunun birgə təşkilatçılığı ilə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunan "Müstəqil Azərbaycan Xalq Cümhuriyyətinin varisidir" mövzusunda konfrans keçirilib.**

UNEC-in İctimaiyyətlə Əlaqələr Şöbəsinin məlumatında bildirilir ki, universitetdə keçirilən konfransda millət vəkilləri, tarixçi alimlər, media qurumlarının rəhbərləri, professor-müəllim heyəti və ictimaiyyət nümayəndələri iştirak ediblər.

İştirakçılar öncə Azərbaycan İstiqlal Muzeyinin eksponatlarından ibarət fotosərgi ilə tanış olublar. Sərgidə cümhuriyyətin qurucularının, əsgər və zabitlərinin, o cümlədən dövrün əhəmiyyətli sənədlərinin fotoları nümayiş etdirilib.

Konfransda çıxış edən **UNEC-in rektoru, professor Ədalət Muradov** Şərqdə ilk demokratik parlament respublikası olan Azərbaycan Xalq Cümhuriyyətinin hər bir azərbaycanlının qürur mənbəyi olduğunu bildirib. Rektor ulu öndər Heydər Əliyevin "Müstəqilliyi əldə etmək nə qədər çətindirsə, onu qorumaq, möhkəmləndirmək bir o qədər də ağır və mürəkkəbdir" fikrinə diqqət çəkərək, məhz ümummilli liderin uzaqgörən siyasəti nəticəsində müstəqilliyimizin əbədi və sarsılmaz olduğunu vurğulayıb. O, cümhuriyyət tarixinin ilk dəfə ulu öndərin rəhbərliyi dövründə təhlil olunduğunu bildirərək, bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini diqqətə çatdırıb. Ə.Muradov dövlət başçısının sərəncamı ilə 2018-ci ilin Azərbaycan Respublikasında "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsini bunun bariz nümunəsi adlandırıb.

"Səs" media qrupunun rəhbəri Bəhruz Quliyev bildirib ki, ulu öndər Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasını xalqımız üçün tarixi hadisə adlandırıb. Prezident İlham Əliyev isə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasını xalqın milli oyanışının məntiqi yekunu kimi dəyərləndirib.

Konfransda millət vəkilləri Musa Qasımlı, Musa Quliyev, Elman Nəsirli, Aydın Hüseynov və Rauf Əliyev, həmçinin Azər Badamov çıxış ediblər.

"İki Sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə Şərqdə ilk dəfə olaraq Azərbaycanda demokratik cümhuriyyətin yaradılmasını mühüm əhəmiyyət kəsb edən və gələcəkdə xalqımızın taleyinə ciddi təsir edən tarixi hadisə adlandırıb.

Tədbirdə iştirak edən görkəmli tarixçi alimlər ADPU-nun prorektoru Asəf Zamanov, AMEA Fəlsəfə İnstitutunun şöbə müdiri Sakit Hüseynov, BDU-nun kafedra müdirləri Anar İsgəndərov, İradə Hüseynova, tarixçi alim Boran Əziz və digərləri cümhuriyyətin xalqımıza verdiyi töhfələrdən bəhs edərək, qısa hakimiyyətləri dövründə Azərbaycan tarixində 350 ilkə imza atıldığını diqqətə çatdırıblar. Çıxış edənlər belə bir mühüm tədbirin UNEC-də qeyd edilməsinin əhəmiyyətini vurğulayaraq, bu universitetin Azərbaycan ali təhsil sisteminə bir çox yeniliklər gətirdiyini bildiriblər.

**Ülvi QARAYEV,**
**"Respublika".**

# Laçın: inam və ümid qələbəyə aparır

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində və Laçının müdafiəsində 328 nəfər şəhid, 225 nəfər əlil olub, 33 nəfər uşaq isə hər iki valideynini itirib. İgidliyə və göstərdiyi şücaətə görə 5 nəfər Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb.**

Laçın dağların qoynuna sığınmış, əsl dağ qartalını xatırladan və ana təbiətin yaratdığı bir inci idir. Bu yerlər təbiətin yaratdığı al-əlvan rənglərin sehrinə bələnərdi. Zirvəsində qış, ətəyində bahar olan dağlar, yaylaqlar, zümrüd meşələri, sıldırım qayaları, buz bulaqları, min bir dərdin dərmanı olan havası, suyu, bir sözlə, zəngin təbiəti ilə məşhur olan Laçın Azərbaycan tarixində özünəməxsus yer tutub. Ermənistanın Azərbaycana qarşı apardığı işğalçılıq müharibəsi 26 ildir ki, davam edir. 1992-ci il mayın 17-də düşmən öz havadarlarının köməyi ilə əzəli və əbədi Azərbaycan torpaqlarını zəbt edib. Həmin yurd yerlərimiz Ermənistan tərəfindən tarmar edilib, dini və mədəni abidələr dağıdılıb. 2016-cı il aprel ayının əvvəllərində Azərbaycan ordusu erməni silahlı qüvvələrinin hücumunun qarşısını cəsarətlə alaraq əks-hücumla bir neçə vacib yüksəklikləri işğalçılardan azad edib. Bu sarsıdıcı zərbə Ermənistanı ağır bir duruma salıb. İndi hər birimizdə çox böyük ruh yüksəkliyi yaranıb. Bu fikirləri hər bir laçınlının dilindən eşitmək mümkündür.

Bu gədim yurd yerimiz işğal altında qalsa da, laçınlılar ağır və çətin həyat şəraiti ilə üzləşsələr də, xalqımızın ümummilli lideri Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışından sonra ulu öndərin etrafında yumruq kimi birləşdilər. Sözün əsl mənasında onlar həmişə yüksək əzmkarlıq, dəyanət, qətiyyət, dövlətçiliyə sədaqət, vətənpərvərlik və yurdsevərlik nümayiş etdiriblər.

Məlumat üçün qeyd edək ki, Laçın rayonu Azərbaycan Respublikasının cənubqərbində yerləşir. Şimaldan Kəlbəcər rayonu, şərqdən Xocalı, Şuşa və Xocavənd rayonları, cənubdan Qubadlı rayonu, qərbdən isə Ermənistan ilə həmsərhəddir. Ərazisi 1835 kvadratkilometrdir. Rayonda bir şəhər, bir qəsəbə, 125 kənd olub.

Ərazisinin 75781 hektarı kənd təsərrüfatına yararlı idi. 33205 hektarını əsasən palıd, ardıc, cökə, vələş, fıstıq və s. qiymətli ağaclardan ibarət meşə zolağı, 72000 hektarını yay otlaq sahələri, 1470 hektarını isə meyvə bağları təşkil edib. Ərazi əsasən çay daşı, qum, gil, qrafit, dağ büllur, mərmər, civə, uran, kobalt, xrom, qızıl və dəmir yataqları kimi faydalı qazıntılarla zəngindir. Rayon ərazisində 200-ə yaxın tarixi, mədəniyyət və memarlıq abidələri, onlarca kurqan, qala tipli arxeologiya baxımından qiymətli olan abidələr və digər tikililər var idi.

Laçın təbii və nadir inci hesab olunan Turşsu, İstisu və digər mineral bulaqları ilə məşhur olub. Bu yerlərdə bitən kəklikotu, itburnu, qatırquyruğu, çobanyastığı, solmazçiçəyi, bağayarpağı, yemişan, baldırğan, qırxbuğum və digər saysız-hesabsız dərman bitkiləri min bir dərdə dərman olub. Dağlarda dağ keçisi, ceyran, qaban, ayı, bəbir, canavar, tülkü, dələ, dovşan və digər heyvanlar var idi. Başı göylərə dəyən dağların zirvəsində qartallar uçardı. Ta qədimdən Laçın heyvandarlıq, arıçılıq və tərəvəz məhsullarının istehsalı ilə xüsusilə seçilirdi.

Laçın həm füsünkar təbiətinə, həm də strateji əhəmiyyətinə görə çox mühüm ərazidə yerləşirdi. Ermənistanla Dağlıq Qarabağ arasında ən qısa və əlverişli yol burdan keçirdi. Ona görə də ermənilər həmişə Laçını ələ keçirmək niyyətində olublar. 1992-ci ildə xain düşmən bu fürsəti əldən qaçırmadı. May ayının 18-də Laçın işğal edən ermənilər Gorus-Laçın-Xankəndi dəhlizinin açılmasına nail oldular. Düz iyirmi beş ildir ki, respublikamızın 59 şəhər və rayonuna səpələnmiş laçınlılar yurd həsrəti, vətən nisgili ilə yaşayırlar. Keçmiş qəhrəmanlıq tarixinə söykənən laçınlıları uzun illərdir ki, bu suallar düşündürür: Laçın nəyə görə müdafiə oluna bilmədi? 1905-1918-ci illərdə Laçın ermənilərə layiqli cavab vermiş və dağlar qoynunda qartal kimi məğrur dayanmışdı. Bəs 1992-ci ildə yurd yerlərimizi niyə qoruya bilmədik? Haqlı suallardır. Təbii ki, bu sualların cavabı bu gün hər kəsə aydındır.

Məğrur oğullar diyarı olan Laçın 1992-ci ildə başı hakimiyyət davasına qarışan o vaxtkı Azərbaycan iqtidarının səhlənkarlığının qurbanı oldu. İşğal nəticəsində Laçın şəhərində, Qayğı qəsəbəsində və 125 kənddə olan 13.475 yaşayış evi, 48 sənaye, 63 kənd təsərrüfatı müəssisəsi, 217 mədəni-maarif, 101 məktəb, 142 səhiyyə, 460 ticarət şəbəkəsi itirilib. Ümumilikdə rayona 7.1 milyard ABŞ dolları həcmində ziyan dəyib. Rayonun 34 min hektar meşə massivi, 72 min hektar yaylaq sahəsi erməni tapdağı altında qalıb və Laçında 200-dən çox tarixi abidə erməni vandalizminin qurbanı olub.

Bu bir həqiqətdir ki, XX əsrin əvvəllərində Zəngəzur, İrəvan və Arazboyu ərazilərdə dəhşətli vəhşiliklər törədən erməni silahlı dəstələrinə həlledici və öldürücü zərbəni xalq qəhrəmanı Sultan bəyin rəhbərliyi altında Laçının igid övladları vurub. Zabux dərəsində erməni silahlı birləşmələrini mühasirəyə alaraq düşmənə sarsıdıcı zərbələr endirib. Beləliklə də Qarabağda yaşayan Azərbaycan əhalisini gözləyən böyük bir təhlükə aradan qaldırılıb.

Müharibə dəhşətləri, doğma yurd yerlərinin itirilməsi, igid oğulların şəhid olması, torpaqlarımızın işğala məruz qalması insanları ümidsizliyə, ruh düşgünlüyünə düçar etmişdi, digər tərəfdən isə o vaxtkı rəhbərliyin günahı üzündən respublikada aclıq, səfalət hökm sürürdü. Bütün bu özbaşınalığa, hərc-mərcliyə, anarxiya və xaosa görə laçınlılar da sabaha olan ümidlərini itirmişdilər. Lakin 1993-cü ildə ulu öndər Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı xalqımızın başının üstünü almış bütün bəlalara son qoydu. Ölkə parçalanma təhlükəsindən xilas oldu. Vətəndaş müharibəsinin qarşısı alındı. Qanunsuz silahlı dəstələr ləğv edildi. Cəbhə xəttində atəşkəs elan olundu. Ölkəmizdə ictimai-siyasi sabitlik bərqərar olmağa başladı. İtirilmiş ümidlər yenidən dirçəldi. Ölkədə güclü qayda-qanun yaradıldı. Ermənistanın hərbi təcavüzü nəticəsində məcburi köçkünə çevrilmiş insanlara diqqət və qayğı artırıldı.

İşğal haqqında danışmaq çox ağırdır. İnsan mənən əziyyət çəkir, ağrıları, itkiləri isə unutmaq heç mümkün deyil. İtirilmiş yurd yeri Laçın haqqında keçmiş zamanda danışmaq olmur, ağır faciə uzun illərdir ki, bizi necə dəyərlər yandırıb yaxır. Bir çox insanlar yurd həsrəti ilə bu dünyadan köç ediblər. Tarix və həyat bizi çox suallar qarşısında qoysa da, gələcəyə baxmağa, düşməndən intiqam almağa, yurd yerlərinə qayıtmağa güc və inam daha da artıb.

Məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması, onların problemlərinin həlli Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin daim diqqət mərkəzindədir. Bu gün hər bir laçınlı bu qayğıya öz əməli işi ilə cavab verməklə layiqətlə çalışır, dövlətə yük olmamaq üçün sahibkarlıqla məşğul olur. Dövlət tərəfindən sahibkarlara münbit şərait yaradılıb, əsassız yoxlamalara son qoyulub. Fermerlər Bakı, Sumqayıt şəhərlərini ət və süd məhsulları ilə təmin edirlər.

Aşkarlıq, ədalət olan yerdə uğurlu nəticələr əldə olunur, insanlarda sabaha, gələcəyə dərin inam yaranır. Atılan hər bir xeyirxah addım təbii ki, cavabsız qalmır, həmrəyliyə, dialoqa, səmimiyyətə geniş qapı açır. Bu gün rayonun nəbzi bax belə nikbin notlar üzərində döyünür. Rayon icra hakimiyyətinin başçısı Aqil Nəzərov iş gününün çox hissəsini əhali arasında keçirir, həmyerlilərini narahat edən məsələlərin yerinə yetirilməsinə səy göstərir. Təbii ki, bu addımlar da adamlar tərəfindən yüksək qiymətləndirilir, inam, etibar daha da möhkəmlənir. İcra başçısının xarakterində dəqiqlik və konkretlik xüsusi yer tutur.

Həyat öz axarı ilə davam edir. Qayğılar, necə deyərlər, başdan aşır, hələ görüləsi işlər kifayət qədərdir. Vətəndaşların gəlirli və onların müraciətlərinə baxılmasına ciddi diqqət yetirilir. Əhalinin mənzil-məişət şəraitinin, içməli su təchizatının yaxşılaşdırılması, yol, abadlıq işlərinin görülməsi istiqamətində müsbət nəticələr əldə olunub. Hazırda bütün obalara gedən yollara çınqıl döşənib, məhlələrası yollarda son tamamlama işləri başa çatır.

Rayonda kifayət qədər hörmət və nüfuzu olan, ağsaqqal Əmirxan Zeynalov işğal haqqında danışır:

- 1992-93-cü illərdə respublikamızda baş verən anarxiya və hakimiyyət uğrunda çəkişmələr, rayonun müdafiəsində buraxılan kobud səhvlər, silahlı qüvvələrin pərakəndəliyi, eyni zamanda, Ermənistan silahlı qüvvələrinin aramsız hücumları nəticəsində Laçın işğal olundu. Artıq 26 ildir ki, məcburi köçkün həyatı yaşamağa məcbur olmuşuq. Nə qədər rahat yaşasaq da, güzəranımız yaxşı olsa da yurd yerimiz bir an da olsun yadımızdan çıxmır, yurdsuzluq bizə çox əziyyət verir.

Etnoqraf alim, Əməkdar mədəniyyət işçisi, tarix elmləri doktoru Solmaz Məhərrəmova deyir:

- Laçın Azərbaycanın əzəli və əbədi torpağıdır. Bu qədim yurd yerimiz hər bir azərbaycanlının qəlbində yaşayır. Hər bir laçınlının ürəyində qəti bir inam vardır ki, igid və cəsur övladlar yetirmiş, Azərbaycan elminə, mədəniyyətinə görkəmli insanlar bəxş etmiş Laçın və eləcə də digər işğal altında qalan torpaqlarımız dövlətimizin başçısı İlham Əliyevin həyata keçirdiyi uğurlu xarici siyasət nəticəsində tezliklə işğaldan azad olunacaq.

Azsaylı xalqın nümayəndəsi Fəxrəddin Paşayev doğulub boya-başa çatdığı Laçın haqqında həmişə həyəcanla, düşmənə sonsuz nifrət hissi ilə söz açır:

- Laçınlılar həmişə dövlətimizin, möhtərəm Prezidentimizin qayğısını, diqqətini, doğma münasibətini yaxından hiss ediblər. Vaxtilə susuz səhralara çevrilmiş yerlərdə indi abad və yaraşıqlı qəsəbələr salınır. Laçınlılar öz adət-ənənələrini qətiyyətlə, böyük ruh yüksəkliyi ilə yaşadırlar. Onlar torpaqların işğaldan azad edilməsi üçün Ali Baş Komandanın əmrini gözləyirlər. Bu qəti inam və ruh yüksəkliyi hər bir laçınlının qəlbində qərar tutub.

**İşğaldan 26 il keçməsinə baxmayaraq insanların yurd sevgisi, el-oba həsrəti, doğma yerlərə qayıtmaq arzusu birə-bir artıb. Bu arzu, onların yanğısı onların qəlbində daima alovlanır. Hamı yaxşı bilir ki, ikili siyasət aparan beynəlxalq təşkilatlar, vasitəçilər Ermənistanın təcavüzkar siyasətinə və hərbi təcavüzünə göz yumurlar.**

**Salman ALIOĞLU,**
**"Respublika".**

# Azərbaycan Xalq Cümhuriyyəti şərəfli tariximizdir

**Zaman Azərbaycan gəncliyinə tariximizi dərindən öyrənmək və sabahımızı milli mənafelər baxımından qurmaq üçün çox böyük şanslar vermişdir. Təxminən iyirmi yeddi il əvvələ qədər bu imkanların heç biri mövcud deyildi. Öz milli tarixini öyrənmək istəyən gənc mütləq özgəsinin yazdığı tarixi oxumaq məcburiyyətində idi. Həmin mənbələr isə gah qərəzçiliklə, gah da təhrif olunmuş formada qələmə alınmışdı.**

Ümummilli lider Heydər Əliyevin siyasi dühası nəticəsində qorunub əbədiləşdirilən dövlət müstəqilliyimizin bizə verdiyi ən böyük töhfələrdən biri də məhz öz tariximizi olduğu kimi öyrənmək imkanını əldə etməyimizdir. Ulu öndər ötən əsrin əvvəlində yaranmış Azərbaycan Xalq Cümhuriyyətinin və əsrin sonunda əbədi bərqərar olmuş Müstəqil Azərbaycan Respublikasının bütün dünyada özünəməxsus nüfuz, imic qazanmasını bir əsrin iki başlıca hadisəsi adlandıraraq yazırdı: "Ən əsası odur ki, Azərbaycan Xalq Cümhuriyyəti az yaşasa da, xalqımızda azadlıq, müstəqillik fikirlərini daha da gücləndirmiş oldu. Bu cümhuriyyətin yaradılmasında müstəsna xidmətləri olan Məhəmməd Əmin Rəsulzadə, Əlimərdan bəy Topçubaşov, Fətəli xan Xoyski, Həsən bəy Ağayev, Nəsib bəy Usubbəyov, Mehdi bəy Hacınski, Məmməd Yusif Cəfərov, Xudadat bəy Rəfibəyov, Əkbər ağa Şeyxülislamov, Teymur bəy Makinski, Səməd bəy Mehmandarov, Əliağa Şıxlinski, Sultan Məcid Qənizadə, Xəlil bəy Xasməmmədov, Əhməd bəy Pepinov, Şefi bəy Rüstəmbəyov kimi görkəmli ictimai xadimlərin xatirəsini qədirbilən Azərbaycan xalqı bu gün də böyük ehtiram hissi ilə yad edir". AXC demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, səhiyyə, hərbi quruculuq sahələrində atdığı mühüm addımları başa çatdıra bilməsə də, onun qısa müddətdə təsirini göstərən fəaliyyəti xalqımızın tarixində silinməz iz buraxmış, milli dövlətçilik ənənələrimizin bərpası işində böyük rol oynamışdır. Nümunə üçün qeyd edək ki, 1 sentyabr 1919-cu ildə Azərbaycan parlamenti Dövlət Universitetinin təşkili haqqında qanun qəbul etdi və bununla da, milli təhsil ocağının əsası qoyuldu. Cümhuriyyət hökuməti 27 iyun 1918-ci il tarixli qərarı ilə o zaman türk dili adlanan Azərbaycan dilini dövlət dili elan etdi. 23 aylıq müddət ərzində Azərbaycan Xalq Cümhuriyyəti milli dövlətin müstəqilliyinin möhkəmləndirilməsi istiqamətində bütün dövlətlərlə qarşılıqlı əməkdaşlıq ilişgiləri yaratdı. Bir məqamı xüsusilə qeyd edək ki, XX əsrin əvvəlində Azərbaycanın öz dövlət müstəqilliyinə qovuşması göydəndüşmə bir hadisə və ya bir-iki ilin ictimai-siyasi proseslərinin, azadlıq mübarizəsinin nəticəsi deyildi. Bu cümhuriyyətin ərsəyə gəlməsi xalqın yüz illərdən bəri formalaşmış arzu və istəklərinin nəticəsi idi və tarixdə mövcud olmuş Azərbaycan dövlətlərinin varisi kimi ərsəyə gəlmişdi. Eyni zamanda, Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsi zamanın yaratdığı şansın nəticəsi idi. Belə ki, Birinci Dünya Müharibəsinin gedişində "xalqlar həbsxanası" olan Rusiya imperiyasının dağılması üçün real tarixi şərait yaranmışdı. Üstəlik Azərbaycan xalqı qədim dövlətçilik ənənələrinə malik olması ilə yanaşı, müasir idarəçilik mədəniyyətinə də yiyələnmişdi. Xalqımızı müstəqil dövlət halında idarə edə biləcək görkəmli ziyalılar var idi. Məsələn, Rusiyanın Dövlət dumalarına seçilmiş azərbaycanlı deputatların hamısı milli azadlıq hərəkatının ən qabaqcıl nümayəndələri idilər. Duma deputatları Əlimərdan bəy Topçubaşov, İsmayıl xan Ziyadxanov, Fətəli xan Xoyski, Xəlil bəy Xasməmmədov və Yusif Cəfərov peşəkar hüquqşünaslar idilər. Məhəmməd ağa Şahtaxtinski isə Sarbonna Universitetinin dinləyicisi olmuş, Leypsiq Universitetinin fəlsəfə fakültəsini bitirmişdi. Məhz bu insanlar və adı çəkilməyən digər vətən, xalq fədailəri 1918-ci il mayın 28-də Tiflisdə Azərbaycanın İstiqlal Bəyannaməsini qəbul etmişdilər. Qəbul edilən bu sənəd bütün türk-müsəlman dünyasında, ümumiyyətlə, bütün Şərqdə ilk dəfə olaraq məhz Azərbaycanda ən demokratik respublika idarəüsulunun - parlamentli respublikanın yaradıldığını elan edirdi. Beləliklə, bilavasitə Birinci Dünya Müharibəsinin gedişində, eyni zamanda, 300 illik Romanovlar sülaləsinin süqutu nəticəsində hədsiz dərəcədə mürəkkəb bir tarixi şəraitdə Azərbaycanda dövlətçilik ənənələri yenidən bərpa edildi. Bu fakt bir də onunla əlamətdar idi ki, bu dövlət sırf Avropa səviyyəsində siyasi kurs götürmüşdü. Bütün tarixçilərin yekdil rəyi belədir ki, Azərbaycan Xalq Cümhuriyyətinin siyasi strukturu böyük demokratiya ənənəsi olan Avropa dövlətlərinin heç birinin strukturundan geridə qalmırdı. Ancaq o illərdə zaman tamamilə başqa idi və Azərbaycanın bədxahları həddən artıq güclü idilər. Ona görə də ilk müstəqil dövlətimiz tarixin ağır sınaqlarına və çoxqütblü siyasi təzyiqlərə tab gətirə bilmədi. Bununla belə, Azərbaycan Xalq Cümhuriyyətinin təcrübəsi və milli dövlətçiliyin bərpası ideyası xalqın ürəyindən heç zaman silinmədi. 1991-ci ilin oktyabrında əldə etdiyimiz ikinci dövlət müstəqilliyimiz də məhz həmin qətiyyətin və iradənin nəticəsi idi.

Tarixçilər qeyd edirlər ki, Azərbaycanın Sovet dövlətinin tərkibində yaşadığı 70 ildə xalqımızın azadlıq arzusunun, nə zamansa öz müstəqilliyinə qovuşacağı barədə inamın ən bariz nümunəsi ulu öndər Heydər Əliyevin siyasi fəaliyyətində özünü göstərirdi. Yeni dahi rəhbər hələ 1969-82-ci illərdə Azərbaycana rəhbərlik edərkən üfüqdə gələcək dövlət müstəqilliyini görür, gənc müstəqil Azərbaycan dövləti üçün güclü iqtisadiyyat, elmi-texniki potensial, çoxsaylı ziyalılar ordusu, ən başlıcası isə minlərlə hərbçi mütəxəssislər hazırlayırdı.

Azərbaycanın 1991-ci ildə dövlət müstəqilliyini bərpa etməsindən sonra yaranan mürəkkəb tarixi şəraitə də məhz Heydər Əliyev siyasi dühası aydınlıq gətirdi. Lakin bu dövrdə regionda-kı ictimai-siyasi proseslər elə istiqamətdə gedirdi ki, Azərbaycan öz dövlət müstəqilliyini ikinci dəfə itirə bilərdi. Bu təhlükəni hiss edən ölkə ziyalıları ulu öndəri Naxçıvandan Bakıya dəvət etməklə xalqa nicat, milli dövlətçiliyimizə isə qurtuluş gətirmiş oldular. Ulu öndər gənc müstəqil Azərbaycan dövlətinə əbədilik qazandırdı, respublikamızın suverenliyinə dönməzlik xarakteri verdi.

2017-ci il mayın 16-da Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinin qeyd edilməsi ilə əlaqədar ulu öndərin layiqli siyasi varisi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2018-ci ilin "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan edilməsi dövlətimiz və xalqımız üçün tarixi bir hadisə oldu. "İnklüziv cəmiyyətlərin qurulması üçün fərqliliklərin aradan qaldırılması" mövzusunda VI Qlobal Bakı Forumunun açılış mərasimində Prezident İlham Əliyev demişdir: "İlk dəfə Şərqdə Azərbaycan xalqı 100 il əvvəl demokratik cəmiyyət quruculuğunu həyata keçirib. İlk dəfə Şərqdə qadınların səsvermə hüququ təmin edilib və bir çox Avropa ölkələrindən əvvəl qadınlara səs hüququ verilib. Ancaq təəssüf ki, iki il sonra Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyinə son qoyulub. Müstəqilliyi qorumaq qazanmaqdan daha çətindir. Bu gün Cümhuriyyətin qurucuları Azərbaycanı görsələr, fəxr edərdilər. Biz də Cümhuriyyətin qurucuları ilə fəxr edirik".

Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın, Türk dünyasının və bütünlükdə Şərq tarixinin ən şərəfli səhifələrindən biridir. Bu gün Azərbaycan Xalq Cümhuriyyətinin zəngin ənənələrini yaşadan müstəqil Azərbaycan dövlətimiz gündən-günə inkişaf edərək dünyanın demokratik və nüfuzlu ölkələrindən birinə çevrilib.

**Vəfa XANOĞLAN,**
**Bakı Xoreoqrafiya Akademiyası, professor.**

# Arkanzas ştatının paytaxtında 28 May Azərbaycan Milli Günü elan olunub

**Arkanzas ştatının paytaxtı Litl-Rok şəhərinin meri Mark Stodola Azərbaycan Xalq Cümhuriyyətinin 100-cü ildönümü ilə əlaqədar rəsmi bəyannamə imzalayıb.**

AZƏRTAC xəbər verir ki, bəyannamədə 1918-ci il 28 may tarixində müsəlman Şərqində ilk parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin elan edildiyi və dünyanın digər demokratik dövlətləri, o cümlədən ABŞ tərəfindən tanındığı qeyd olunur. Sənəddə bildirilir ki, Azərbaycan Xalq Cümhuriyyəti qısa müddət ərzində irqi, cinsi, etnik və ya dini mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşlara bərabər seçki hüququnu tanımaqla yanaşı, müsəlman dünyasında ilk dəfə olaraq qadınlara seçki hüququnun verilməsini təmin edib.

Eyni zamanda, sənəddə Azərbaycan Xalq Cümhuriyyətinin 1920-ci ildə öz müstəqilliyi uğrunda mübarizə aparmasına rəğmən onun Sovet İttifaqının tərkibinə daxil edildiyi və 1991-ci ildə yenidən öz müstəqilliyini bərpa etməyə nail olduğu vurğulanır.

Qeyd edilir ki, Azərbaycan son 25 ildə suverenliyini və müstəqilliyini möhkəmləndirib və hazırda Xəzər regionunda ABŞ-ın müttəfiqi və strateji tərəfdaşıdır.

Bəyannamədə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illik yubileyinə dünyada yaşayan milyonlarla və ABŞ-da on minlərlə azərbaycanlı tərəfindən 28 May tarixinin milli bayram kimi qeyd edildiyi bildirilir, hər bir azərbaycanlının öz əcdadlarının Qafqaz, Mərkəzi Asiya və Orta Şərqdə demokratiyanın yayılması üçün verdiyi töhfələri xatırladıqları vurğulanır.

Sonda şəhərin meri Mark Stodola imzaladığı bəyannamədə 2018-ci il 28 may tarixini Litl-Rok şəhərində Azərbaycan Milli Günü elan edib.

**AZƏRTAC**

*Yeni nəşr*

# “İşıqlı ömürlər, kövrək talelər”




62 il öncə Azərbaycan Dövlət Universitetinin tələbəsi ikən uğurlu diplom işi ilə elmi-tədqiqat aləminə qədəm qoyan Sabir Gəncəli (Məmmədov) Bakı, Moskva, Sankt-Peterburq şəhərlərinin dövlət arxivlərində, mərkəzi kitabxanalarında araşdırma aparmış, zəngin material toplamış, Azərbaycanın maarifpərvər qadınları ilə görüşüb xatirələrini qələmə almış, beləliklə, Azərbaycanda XIX əsrin ikinci yarısı—XX əsrin əvvəllərində qadın azadlığı, qadın təhsili məsələsini fundamental şəkildə tədqiq etmişdir: maarifçiliyin və mədəniyyətin inkişaf etdirilməsində maarifpərvər qadınların rolu mövzusunda ilk tədqiqat əsərlərini — namizədlik və doktorluq dissertasiyaları yazmış, müdafiə etmişdir. Hələ o zaman (1967) Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü, tarix elmləri doktoru, professor Mahmud İsmayılov onun geniş, əhatəli elmi tədqiqatlarını yüksək qiymətləndirərək yazırdı: “Sabir Gəncəli tarixşünaslıqda ilk dəfə olaraq o dövrün vəziyyətinə və hadisələrə obyektiv yanaşmış, fikir söyləmiş, ilk dəfə olaraq Hacı Zeynalabdin Tağıyevin mədəniyyət tariximizdə gördüyü xeyriyyəçilik işlərinə müsbət qiymət vermiş, Hacının yaratdığı qız məktəbinin maarifçilik tariximizdə oynadığı rolundan bəhs etmişdir. O zaman H.Z.Tağıyevin haqqında müsbət söz demək, qız məktəbindən söhbət açmaq heç də asan məsələ deyildi. Tağıyev deyəni susdururdular. Ancaq Sabir Gəncəli dedi, yazdı və müdafiə etdi”. Həmin vaxtdan yarım əsrdən çox keçir. Bu müddət ərzində Sabir Gəncəli elmi-tədqiqat işini ardıcıl davam etdirmiş, Azərbaycan, rus, ingilis, ərəb, fars dillərində 20-dən artıq kitab, 10 ensiklopedik toplu, 1000-dən çox məqalə, tarixi oçerk, sənədli hekayə, 3 sənədli povest yazıb çap etdirmiş, Azərbaycan Sovet Ensiklopediyasının 10 cildində Azərbaycanın maarifpərvər qadınları haqqında onlarla məqalənin, məlumatın müəllifi kimi çıxış etmişdir. Onun bu xidmətləri akademik Cəmil Quliyev, tarix elmləri doktorları, professorlar Məhəd Sofiyev, Təridə Məmmədova, Şövkət Tağıyeva, Adil Məmmədov, Tamilla Musayeva və b. tarixçilərimiz tərəfindən yüksək qiymətləndirilmişdir.

Gənclik dövründən ömrünü yaradıcılığa həsr edən Sabir Gəncəli dinclik bilmədən uzun illər ayrı-seçkilik siyasəti ucbatından xalqdan gizlin saxlanılmış milli-mədəni irsi, dəyərləri arayıb-araşdırmış, monumental əsərlər yaratmışdır. O, Azərbaycan tarixşünalığında yeni səhifə açmışdır.

Bu gün ömrünün 88-ci baharını yaşayan, saçı-saqqalı ağarmış, balacaboy, arıq cüssəli nurani insan — Sabir Gəncəli qələmindən ayrılmadan gənclik ehtirası ilə yazıb-yaratmaqdadır. Təvazökar, iddasız, zəhmətkeş alim, istedadlı publisist ədəbi ictimaiyyətin rəğbətini qazanmışdır. O, “Tərəqqi” medalına, “Qızıl qələm” (iki dəfə) mükafatına, Azərbaycan Mətbuat Şurasının diplomuna və sair fəxri mükafatlara layiq görülmüşdür.

Bütün həyatını ədəbi yaradıcılığa, elmi-tədqiqat işlərinə həsr etmiş Sabir Gəncəli səmərəli fəaliyyətinə görə 2006-cı ildə Beynəlxalq Sülh Federasiyası, Dünyada Sülh Uğrunda Dinlərarası Beynəlxalq Federasiyası tərəfindən Sülhməramlı səfir fəxri adına və diplomuna layiq görülmüşdür.

Tarix elmləri doktoru Sabir Gəncəli bu günlər çoxsaylı oxucularını sevindirmişdir. Onun Azərbaycan Demokratik Cümhuriyyətinin 100 illiyinə həsr etdiyi “İşıqlı ömürlər, kövrək talelər” adlı ensiklopedik toplu”su yenicə çapdan çıxmışdır *(Sabir Gəncəli-Məmmədov. İşıqlı ömürlər, kövrək talelər. Bakı, Azərbaycan nəşriyyatı, 2018, 434 səh).* Azərbaycan və ingilis dilində nəşr olunmuş bu sanballı toplunun müəllif qeydində oxuyuruq: “Bu gün bütün dünyada ehtiramla tanınan Şərqin və Qərbin sivilizasiyalarının qovuşuğunda şərəfli yer tutan, azadlığın, tərəqqinin, sabitliyin, nəcib, xeyirxah əməllərin carçısı olan demokratik Azərbaycan dövlətinin çiçəkləndiyi bir dövrdə Azərbaycan Demokratik Cümhuriyyətinin 100 illiyini qürurla, sevinclə bayram edərkən xalqımızın vətənpərvər övladlarının istiqlala gedən mübarizə yolları gözlərimizin önündə canlanır. Bu yol sağlam əqidə, işıqlı ideyalar, müdrik insanların yoludur. Bu şərəfli yolda nurani nənələrimiz, müqtədir analarımız böyük xidmətlər göstərmişlər. Onları bu əziz günlərdə yada salıb, Azərbaycan Demokratik Cümhuriyyətinin 100 illiyi günlərində milli tariximizə bir daha nəzər salırıq”.

Bu maraqlı kitab üç bölmədən ibarətdir. “Dövlətçiliyimizin inkişaf etdirilməsində ulu nənələrimizin rolu” adlanan birinci bölmədə müəllif qədim dövrə nəzər salır. Eramızdan əvvəl VII əsrdə tariximizdə şərəfli yer tutan, qəhrəman dövlət xadimi Tomrisin “ana ürəyinin ülviliyi”, poeziyamızın günəşi, dahi Nizami Gəncəvinin “İskəndərnamə” poemasının böyük məhəbbətlə təsvir etdiyi Nüşabənin müdrikliyi haqqında söhbət açır, “Namus, qeyrət cəngində qoşa qanad” adlı məqaləsində qubalı Fətəli xanın ömür-gün yoldaşı Tuti Bikənin döyüş meydanında igidliyini, dövlət işlərində hünərini göz önündə canlandırır. Sonra müəllif “Türk qadını tarix boyunca” adlı məqaləsində Azərbaycan qadınlarının qəhrəman keçmişinə nəzər salır, qüdrətli Azərbaycan dövlətinin birinci xanımı Mömino xatın, Cahan Pəhləvanın arvadı Küteybə xanım, Atabəylər dövlətinin axırıncı hakimi Özbəyin arvadı Mehrican xanım, Təbriz şəhərinin hakimi Zahidə xanım, XIV-XV əsrlərdə Qaraqoyunlu dövlətinin başçısı Qara Yusifin arvadı Ələykə Könüldaş, Ağqoyunlu Uzun Həsənin anası Sara xatın və başqa əsilzadə qadınların dövlətçilik tariximizdə rolundan, söz sənətkarları Məhsəti xanım Gəncəvi, Heyran xanım, Fatma xanım Kəminə, Xurşidbanu Natavan haqqında məlumat verir.

“Azərbaycan Demokratik Cümhuriyyəti Azərbaycan qadınlarının taleyində” adlı ikinci bölmədə maarifçilik və mədəni inkişaf tariximizdə Azərbaycanın ziyalı və maarifpərvər qadınlarının ictimai-siyasi həyatda fəaliyyətinə tarixi sənədlər əsasında geniş yer verilmişdir. Bu bölmədə “Qadın xeyriyyə cəmiyyətləri”, “Cümhuriyyətə qədərki dövrdə Azərbaycan qadınlarının fəaliyyəti”, “Azərbaycan qadınları Cümhuriyyət dövründə”, “Mənəvi varlığımızın simvolu”, “Türk ordusu necə qarşılandı” başlıqları altında dərc olunmuş məqalələrdə dövrün siyasi hadisələri və milli azadlıq hərəkatının vüsət alması, Azərbaycan Demokratik Cümhuriyyətinin qurulması və uğurları qeyd olunmuşdur.

Üçüncü—ən böyük bölmədə 1920-ci il 28 aprel çevrilişindən sonra xalqımızın azad fikir, müstəqillik ideya carçılarının–ziyalıların başına gətirilmiş müsibətlərdən, Şərqdə ilk demokratik cümhuriyyətin yaradıcılarının, o cümlədən maarifpərvər qadınların təqib və təzyiqə məruz qalmalarından danışılır. Həmin bölmənin “Ağ ləkələr”in qaranlıq səhifələri” giriş məqaləsində dövrün ziddiyyətli hadisələri dilə gətirilir.

Sabir Gəncəlinin ayrı-ayrı dərin məzmunlu sənədli hekayələrində tarixin zaman kəsiyində ziddiyyətli ictimai-siyasi aləm, insan taleyi, demokratik ideyalar müxtəlif yöndən işıqlandırılır: “Mavi səma, yaşıl yol, qırmızı xətt” adlı publisistik məqalədə üçrəngli bayrağımızın ideyalarını yaratmış Əli bəy Hüseynzadənin, “Mənim tanrım gözəllikdir, sevgidir” məqaləsində böyük dramaturq Hüseyn Cavidin, “Ömür yoldaşı, məslək dostu” adlı sənədli hekayələrdə görkəmli satirik Cəlil Məmmədquluzadənin ömür yoldaşı Həmidə xanım Cavanşirin, şair Əhməd Cavadın səvimli həyat yoldaşı, türk qızı Şükriyyə xanımın, görkəmli dövlət xadimi Nəriman Nərimanovun ömür yoldaşı Gülsüm xanımın iztirabları, cəza tədbirlərinə məruz qalmış ailələrin acı taleləri təsvir edilir.

Azərbaycan Demokratik Cümhuriyyəti dövründə maarif və mədəniyyət işlərində həvəslə iştirak edən, böyük arzularla gələcəyə ümidlə baxan Azərbaycanın maarifpərvər qadınları Mədinə xanım Qiyasbəyli, Xədicə xanım Ağayeva, Sofiya xanım Şahtaxtinskaya, Qeysər xanım Kasıyeva-Seyidbəyli, Ümgülsüm xanım Sadıqzadə, Sənubər xanım Əyyubova, Köylü qızı Gülarə Qədirbəyova, Xədicə xanım Qayıbova, Şəfiqə xanım Qasprinskaya haqqında yazılmış sənədli hekayələr, tarixi oçerklər ürək ağrısı ilə, həyəcanla oxunur.

Azərbaycanın ilk natiq və maaprifpərvər qadını Məryəm xanım Bayraməlibəyovaya həsr olunmuş “Ülvi arzular, acı tale” adlı sənədli povestdə 1920-1930-cu illərin çox ziddiyyətli, təlatümlü günləri təsirli şəkildə oxuculara çatdırılır.

Müəllif Azərbaycan Demokratik Cümhuriyyətinin ideyalarının xalqımızın qəlbində daim yaşadığını qürur hissilə qeyd edir, Ulu öndər Heydər Əliyevin respublikamızda müstəqil dövlətimizin qurulması işində böyük xidmətlərini göstərir, Ulu öndərimizin parlaq ideyalarını və siyasi kursunu bu gün möhtərəm Prezidentimiz İlham Əliyevin və Azərbaycan qadınlarının möhtəşəm obrazını özündə birləşdirən, dünya şöhrəti qazanmış respublikamızın birinci xanımı, Birinci vitse-prezidenti Mehriban Əliyevanın böyük uğurla davam etdirdiklərini qeyd edir.

Kitabda müəllif “Ön” və “Son” sözündə bu haqda qürur hissilə danışır, tarixi hadisələri obyektiv şəkildə şərh edir.

Elmi faktlar və vaxtilə müəllifin maarifpərvər qadınlarla müsahibələrindən, xatirələrindən, arxiv sənədlərindən toplanmış materiallar əsasında yazılmış və tarixi fotoşəkillərlə zənginləşdirilmiş bu kitab maarif və mədəniyyət tariximizdə dəyərli bir əsər, orijinal mənbə kimi qalacaqdır.

Hörmətli həmkarım Sabir Gəncəliyə qədirbilən oxucular və kitabsevərlər adından ömrünün zirvəsinə doğru yolda sağlam həyat tərzi, xoş ovqat, müdrik çağında tükənməz yazıb-yaratmaq eşqi, barlı-bəhərli ömür arzulayıram.

**Teymur ƏHMƏDOV.**

## Dini radikalizm və ekstremizmə qarşı mübarizədə birgə əməkdaşlıq





**Dövlət Sərhəd Xidməti ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin birgə tədbirlər planına uyğun olaraq may ayının 15-də Göytəpə Sərhəd Dəstəsinin qarnizonunda “Dini radikalizm və ekstremizmə qarşı mübarizə: mənəvi və hüquqi müstəvidə” mövzusunda seminar keçirilmişdir.**

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərovun iştirakı ilə keçirilən seminarda dini radikalizmin törətdiyi fəsadlar geniş izah olunmuş, bəzi qüvvələrin din pərdəsi altında ölkəmizin ictimai-siyasi sabitliyinə, dövlətimizin hüquqi-demokratik əsaslarına qarşı yönəldilmiş pozuculuq fəaliyyətləri, vətəndaşlarımızı xarici dini ekstremist qrupların və onların silahlı dəstələrinin tərkibinə qoşmaq cəhdləri qətiyyətlə pislənmiş və bu cür əməllər törətməyə cəhd edənlərə qarşı dövlət qurumları tərəfindən görülən tədbirlər haqqında ətraflı məlumat verilmişdir.

Tədbirdə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət nəticəsində ölkəmizdə müxtəlif dinlərə etiqad edən insanların mehriban və qarşılıqlı hörmət şəraitində yaşadıqları, respublikamızın tolerantlıq və multikulturalizm nümunəsinə çevrildiyi xüsusi qeyd olunmuşdur.

Seminarda dini amillərdən yararlanaraq radikallığa cəhd göstərən qüvvələrə qarşı mübarizədə hamının, xüsusən gənc nəslin sayıqlıq göstərməsinin zəruriliyi vurğulanmışdır.

Tədbirin sonunda dini radikalizmin törətdiyi fəsadlara həsr edilmiş “Şəhadət” sənədli filmi nümayiş etdirilmişdir.

**Dövlət Sərhəd Xidmətinin mətbuat mərkəzi.**

## Suraxanı rayonunda əhalinin 87,4 faizi tibbi müayinədən keçib

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2018-ci il fevralın 10-dan mayın 12-dək bütün ölkə vətəndaşlarının pulsuz tibbi müayinədən keçirilməsi ilə bağlı tapşırığı rayonda böyük ruh yüksəkliyi ilə icra olunmuşdur. Rayon üzrə 180 min 117 nəfər (18 yaşdan yuxarı) sakinin və rayonda məskunlaşan 14 min 492 nəfər (18 yaşdan yuxarı) məcburi köçkünün tibbi müayinədən keçirilməsi nəzərdə tutulmuşdu. Bu dövrdə 157 min 409 nəfər və 136 müəssisənin kollektivi tibbi müayinədən keçmişdir. Tibbi müayinədən keçən vətəndaşların 10 min 824 nəfəri rentgen, 21 min 176 nəfəri laboratoriya, 5 min 290 nəfəri USM aparatından və 3 min 138 nəfəri EKQ müayinəsindən keçmişdir. Onlardan 3 min 370 nəfərində müxtəlif xəstəliklər aşkarlanmış, 118 nəfər stasionar müalicəyə cəlb edilmiş, 259 nəfər təkrar müayinə və müalicə olunmaq üçün paytaxtın müxtəlif xəstəxanalarına göndərilmişdir.

Tibbi müayinənin keçirildiyi dövrdə səhiyyə müəssisələrində işləyən həkimlərdən ibarət səyyar briqadalar fəaliyyət göstərmişdir. Bu briqadalar məktəblərdə, uşaq bağçalarında və poliklinikaya gələ bilməyən yaşlı insanlara evlərində tibbi xidmət göstərmiş, aşkara çıxarılan xəstəliklər üzrə müalicə kursları təyin etmişlər.

Rayonda tibbi müayinənin aparıldığı səhiyyə ocaqlarından biri olan 23 nömrəli şəhər poliklinikasının baş həkimi Şəhrəbanu Yusifzadə poliklinikanın müayinələrin aparılması üçün əvvəlcədən tam hazır vəziyyətə gətirildiyini və əhalinin tibbi müayinəsinin uğurla başa çatdığını qeyd etdi. O, bildirdi ki, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin tapşırığına əsasən vətəndaşların tibbi müayinədən keçirilməsi əhalinin sağlamlığının qorunmasına, xəstəliklərin vaxtında aşkarlanmasına xidmət edir. Poliklinika 27 min nəfərə yaxın böyük əhaliyə xidmət edir. Tibbi müayinədən keçmək üçün gələn əhali ümumi və biokimyəvi, rentgen, kardioqram, ultrasəs və digər müayinələrdən keçmişlər. Tibbi müayinə dövründə 23 min 640 nəfərdən 2 min 282 nəfəri rentgen, 2 min 23 nəfəri USM aparatından, 919 nəfəri laboratoriya və 2 min 624 nəfəri EKQ müayinəsindən keçib. Müayinədən keçən əhalinin 334 nəfərində müxtəlif xəstəliklər aşkar olunub və 72 nəfər Bakı şəhərinin digər xəstəxanalarına göndərilib. Xəstəlik aşkar edilən vətəndaşların müalicəsi istiqamətində işlər aparılır.



Aparılan araşdırmalar deməyə əsas verir ki, tibbi müayinədən rayon əhalisi çox razı qalmışdır. Sakinlərdən Şəfa Cəfərova, Novruz Xamzəliyev qeyd etmişdir ki, bu tədbirin həyata keçirilməsi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Azərbaycan vətəndaşlarına göstərdiyi diqqət və qayğının nəticəsidir. Rayon sakinləri onlara göstərilən diqqət və qayğıya görə ölkə rəhbəri cənab İlham Əliyevə minnətdarlıqlarını bildirmişlər.

**Mehparə ƏLİYEVA,**
**“Respublıka”.**

*Oxucumuzun yaradıcılığı*

# TƏXƏYYÜL REALLIĞI

*Bədii-fantastik hekayə*

**(Ümummilli lider Heydər Əliyevin əziz xatirəsinə)**

Dostum Nahidlə çoxdandır ki, görüşmürdüm. Bu gün onun səhər zəngində mənə “etibarsız” deməsindən çox utandım. Telefonda xeyli dərdləşib danışdıqdan sonra onun günümüzü Bilgəhdə, çimərlikdə keçirmək təklifi isə lap ürəyimdən oldu.

Beləcə, Bayıl qəsəbəsində görüşərək, onun avtomobili ilə Neftçilər prospekti ilə sahil boyu Bilgəhə, çimərliyə yollandıq. Yol boyu dəyişən və bir-birini əvəz edən, günü-gündən müasirləşməkdə olan şəhərimizin gözəl mənzərələri - Bayraq Meydanı, Crystal Hall sarayı, yeni tikilmiş və beynəlxalq standartlara uyğun müxtəlif təyinatlı idman meydançaları, Əl Oyunları Sarayı, Xalça Muzeyi, Qız qalası, Heydər Əliyev prospektindəki Heydər Əliyev Mərkəzi, yeni memarlıq üslubuna malik metrostansiyalar və s. tikililər Bakıda doğulub, Bakıda yaşamağıma baxmayaraq, hər dəfə də sanki onları ilk dəfə görürmüş kimi məni valeh edirdi. Mən dərindən nəfəs alaraq dostuma dedim:

-Nahid, görürsən, şəhərimiz günü-gündən necə gözəlləşir. Bakıda bu gözəlliyi yaradan yerli və xaricdən dəvət olunmuş arxitektorlar şəhərimizin milli üslubunu müasirliklə sintez etmişlər. Bilirsən ki, dünyanın bir çox şəhərlərini gəzmişəm, amma belə zövqlə tikilmiş və insanda xoş aura yaradan gözəl şəhərə hələ rast gəlməmişəm. Hətta türkiyəli dostlarım da etiraf edirlər ki, müasir Bakı dünyanın gözəl şəhərləri sayılan İstanbul, Neapol və Dubaydan da geri qalmır.

Nahid isə gözünü yoldan çəkməyərək köksünü ötürür:

-Bilirsən, dostum, iş tək tikib-qurmaqla bitmir. Əslində biz, belə bir gözəlliyi, rahat həyatı bizə bəxş edənə borclu olduğumuzu unutmamalıyıq. Özü də elə bilmə ki, təkcə Bakımızın hüsnü dəyişib. Sən hələ Azərbaycanın bölgələrini gəzsən, görərsən ki, rayonlarımız necə gözəlləşib, insanların həyat səviyyəsi yaxşılaşıb. Xalqımız gözəlliyin, əmin-amanlığın içində rahat yaşayır.

Söhbətimizlə uzun yolu qısaldaraq Bilgəh qəsəbəsinə, çimərliyə çatdıq. Burada Kardioloji sanatoriya yerləşdiyindən avtomobilləri dəniz kənarına buraxmırdılar. Ona görə də maşınımızı xüsusi dayanacaqda park etdik. Nahidin elektron poçtuna işləri ilə əlaqədar axşam vacib bir məlumat gələcəyi səbəbindən avtomobildən əşyalarımızla bərabər, onun əl kompüterini də götürüb sanatoriyanın həyəti ilə çimərliyə doğru yollandıq.

Kardioloji sanatoriyanın binası ötən əsrin 40-50-ci illərində memarlıq üslubunda inşa edilmiş yaraşıqlı bir tikili idi. Həyətində isə sovet dönəmindən qalma çoxlu sayda ağ rənglə rənglənmiş idmançı qadın, ana və uşaq, pioner, qartal və ceyran heykəlləri vardı. Sanatoriyanın ərazisində, əsasən də çimərliyə enən pilləkənlər boyunca əncir ağacları əkilmişdi.

Sahilə çatdıq. Mən dostuma dedim:

-Nahid, deyəsən, bir az tez gəlmişik. İndi saat 3 tamamdır. Hələ dənizə girməyin vaxtı deyil. Gün bizi yandıracaq. Günortadan bir qədər ötmüş, gün əyiləndən sonra suya baş vurarıq. Vaxtilə qızmarda çimərliyin “ləzzətini” dadmışam...

Nahid mənimlə razılaşıb sahilboyu quraşdırılmış toxunma qamış çətirlərdən birini gözaltıladı. Əl kompüterini yaxınlıqdakı kafedə şarj olunmaqdan ötrü qoyandan sonra gətirdiyimiz məhrabaları qumun üstünə sərib paltarlarımızı soyunaraq uzandıq.

Hava təmiz və sakit olsa da, günəş öz isti nəfəsi ilə ətrafı yandırıb-yaxırdı. Buna baxmayaraq, kölgəsində uzanıb rahatlandığımız qamış çətir bizi bu istidən yaxşıca qoruyurdu. Asta əsən meh və ləpələrin xışıltısı bizə mürgü gətirirdi. Nə vaxt dərin yuxuya getdiyimizi də bilmədik. Hətta necə olubsa, əsən mehin güclənərək çətirimizi aşırmasını da bilməmişik...

Hiss etdim ki, kimsə məni silkələyir. Elə bil onun uzaqdan gələn səsini də eşitdim:

-Ay bala, ay oğul, ayılsana! Vay, gün yazıqları birtəhər eliyib ki. Ayıl, ay oğul, ayıl...

Gözlərimi ağır-ağır açanda qarşımda bizi ayıltmağa çalışan, ağsaçlı kişinin dayandığını gördüm. Yuxulu olsam da, gözüm onun əynində sovet ordusu zabitinin boz-yaşıl nimdaş rəngli köynəyini və ayağında əsgər çəkmələrinə bənzər ayaqqabısını aldı. Çimərliyin səsgücləndiricilərindən isə bəstəkar Sergey Nikitinin 30-40-cı illərdə bütün Sovet İttifaqında dəb olan “Rio-Rita” fokstrotu səslənirdi.

Kişi başımızın üstündə dayanıb qayğıkeşliklə harayhəşir salmışdı:

-Heç belə qızmar günəşin altında da uzanarlar? Çətirinizi də külək aşırıb. Bişmecə oldunuz ki...

Mən cəld yerimdən qalxıb, yan-yörəmizə göz gəzdirərək Nahiddən soruşdum:

-Bəs bizim paltarlarımız hanı?

Nahid çiyinlərini çəkdi:

-Nə bilim. Çətirin qarmağından asmışdıq ki... Budey, külək paltarlarımızı da yerə sərib...

Narahatlığım birə-beş artdı:

-Bax gör telefonlarımız, maşının açarı yerindədir?

Ağsaç kişi təəccüblə bizə baxdı:

-Nə telefon, ay bala? Deyəsən, gün başınıza o ki var döyüb, sizi gicəlləndirib. Bura ən yaxın telefon qəsəbədəki poçtdadır.

Məni gic bir gülmək tutdu. Necə yəni “ən yaxın telefon qəsəbədəki poçtdadır?”. Özümü boğub təəccüblə ona baxdım:

-Ay dayı, sən nədən danışırsan, mən mobil telefonlarımızı deyirəm. Poçt nəyimə lazımdır...

Bunu deyib, əlimi şalvarımın çibinə saldım və mobil telefonumu gözünün qarşısına tutdum:

-Bax, bunu deyirəm.

Ağsaç kişi diqqətlə telefonuma baxdı:

-Bu nədir, balası? Radiodur? Ələ salmısan məni? İndi deyirsən ki, sən guya telefonu cibində gəzdirirsən? Bəs onun “şnuru”-məftili haradadır?

İkimiz də mat-məəttəl qalmışdıq.

-Dayı, deyəsən, bizimlə məzələnir, guya mobil telefon görməyib. Dayı, bu telefonla dünyanın harasıyla istəyirsən danış. Təki balansında pul olsun... Bir də ki, tək siz deyilsiniz. Mənim işlədiyim müəssisənin bufetində də biri var. İndiyə qədər qıyıb özünə bir mobil telefon da almayıb. Dediyinə görə, onu qorxudublar ki, bunlar şüa buraxır, orqanizmə ziyandır. Onu başa sala bilmirik ki, müasir insanın həyatını indi bunsuz təsəvvür etmək olmur.

Bayaqdan danışığıma diqqətlə qulaq asan ağsaç kişinin qaşları çatıldı. Çaşqınlıq içində idi, hiss olunurdu ki, sözlərimdən heç nə anlamayıb. Mən yerimdən qalxaraq şalvarımın çibindən siqaret qutusunu çıxartdım və kişiyə də təklif edərək bir siqaret yandırdım. Kişinin gözləri bərəldi.

- Bu nə papirosdur çəkirsiniz?

Gülümsündüm.

-Dayı, bu, papiros deyil, siqaretdir. Özü də xarici siqaret.

O, yenə də məni başa düşmədi.

- Deyirsən yəni bunu xaricdən gətiriblər?

-Bilmirəm. Amma üstündə ingiliscə yazılıb ki, orijinalıdır. Xarici şirkətlərin lisenziyası ilə bizdə buraxılır.

O heyrətlə:

-A bala, necə yəni sizdə buraxılır? Siz kimsiniz, nəçisiniz və haradan gəlmisiniz?

Məni yenə gülmək tutdu. İndi buna necə cavab verim ki, məni başa düşsün?

- Biz müstəqil Azərbaycanın azad vətəndaşlarıyıq...

Bu zaman kişi o yan-bu yana boylandı. Gözü ləpədöyənə atılmış taxta parçasına sataşdı. Cəld hərəkətlə qaçıb onu götürdü və oturduğu yerdən qalxmaq istəyən Nahidi başından bərk vuraraq qışqırdı:

-Yerinizdən tərpənməyin! - Sonra arxaya çevrilərək həyəcanlı səslə qışqırdı: - Uşaqlar, bura gəlin! Tez! - deyib, kimləri isə səsləməyə başladı.

Kişinin qara-qışqırığına bir göz qırpımında 7-8 nəfər köhnə hərbi köynəkli və cüssəli adamlar tökülüşüb gələrək bizi əhatəyə aldılar. Başından gözlənilməz zərbə alan Nahid isə ağrıdan qovrula-qovrula kişinin qoparağını götürdü:

-Ay kişi, neynirsən? Dəli olmusan? Sənə nə dedik ki, üstümüzə hücum çəkib, hələ bir məni də vurursan? Bir siqaretə görə adamı belə günə salarlar?

Ağsaç kişi sakitləşmək bilmir, get-gedə daha da qızışırdı.

-Kəs səsini, küçük! İndi kimin dəli, kimin ağıllı olduğu məlum olar!

Bunu deyib üzünü çağırışına gələnlərdən birinə tutaraq:

-Qaç təcili milis çağır! Mənim bunlardan gözüm su içmir... Qoy gəlib ayırd etsinlər ki, bunlar kimdilər, nəçidilər, hardan gəliblər, hansı yuvanın quşudurlar! - deyib, bizi gözdən qoymadı.

Oğlan qaça-qaça sahildən sanatoriyaya qalxan pilləkənlərə doğru getdi. Ağsaç kişi tam hövsələdən çıxmış, əsəbi halda bizi yenidən sorğu-suala tutdu:

- Bayaq ayılanda maşının açarını soruşurdun. Deyirsən maşın da sürürsünüz? Hə, maşınınız haradadır?

Əsəbimdən boğulsam da özümü ələ almağa çalışırdım. Bir qədər yalvarıcı səslə kişini yumşaltmaq istəyirdim.

-Ay dayı, qurban olum, axı nə olub, biz neynəmişik ki? Məgər burada siqaret çəkmək qadağandır? Maşınımızı da yuxarıda dayanacaqda saxlamışdıq. Bilmək istəyirsənsə, deyim ki, özü də Hondadır, yapon maşını.

Kişinin gözləri bərəldi:

-Honda? Yapon? Hər şey aydın olur deyəsən...

Bu zaman sahilə enən pilləkənlərdən bizə doğru qaçan, lap 40-50-ci illərin kinolarındakı kimi geyinmiş 3 ağ kitel və furaşkalı, göy şalvarda, qırmızı paqonlu hərbçini gördük. Sağdan isə köhnə modeldə bir UAZ avtomobili yüksək sürətlə sahil qumunu yararaq bizə tərəf şütüyürdü.

Burada deyiblər e, yaman yerdə axşamladıq. Əməlli-başlı dilxor olmuşduq.

- Ay dayı, bu nə kinodur? Biz neyləmişik axı?

Bu zaman qaçaraq bizə yaxınlaşan köhnə uniformalı hərbçilərdən biri əvvəlcə əsgər salamı verərək özünü təqdim etdi:

-Milis leytenantı İbrahimov. Nə baş verib burada? Bunlar kimdilər?

Ağsaç kişi isə taxtanı əlindən yerə qoymayaraq casus tutmuş kəşfiyyatçı kimi dil-dil ötdü:

-Bunların bir sənədlərini yoxlayın. üstlərində dediklərinə görə rabitə vasitəsi və xarici siqaretləri də var. Özləri də hətərən-pətərən danışırlar...

Milis leytenantı yan cibindən çıxardığı ağ yaylığıyla boyun-boğazının tərini sildi, üzünü bizə tutaraq sakit, amma amiranə səslə dedi:

-Vətəndaşlar, xahiş edirəm, sənədlərinizi təqdim edəsiniz...

Biz əyinimizi geyinərək köynəyimizin cibindən şəxsiyyət vəsiqələrimizi çıxarıb ona təqdim etdik. Milis leytenantı şəxsiyyət vəsiqələrinə ilk dəfə görürmüş kimi təəccüblə baxaraq yanındakı milis nəfərlərinə dedi:

-Hər şey aydındır... Həbs edin bunları.

Elə bu sözü demişdi ki, onunla gələn iki milis nəfəri tapançalarını çıxardaraq bizə tərəf tuşladılar, o isə gəldikləri avtomobilə sarı gedib, oradan götürdüyü iki ədəd qandalla əllərimizi qandalladı. Bu zaman çimərlikdə başımıza yığışan camaat və bayaq bizi mühasirəyə alan kişilər maraqlarından onu sorğu-suala tutdular:

-Yoldaş leytenent, bunlar kimdilər axı? Sənədlərində nə yazılıb? Haradan gəliblər? Casusdular?

O isə cavab vermədən əlinin işarəsilə onlara bizi avtomobilə əyləşdirməyi əmr edərək amiranə səslə dedi:

-Beləlri haqqında eşitmişdim, amma görməmişdim... Heç nə deyə bilmərəm... Bölmədə hər şeyi aydınlaşdırarlar...

Beləliklə, bizi milis bölməsinə gətirdilər. İkimizi də yarıqaranlıq, barmaqlıqla bağlı aynabəndli otağa salıb, yerə bərkidilmiş stulda əyləşdirdilər. Bu zaman diqqətimi qarşımızdakı masanın üzərində “Kommunist” qəzeti cəlb elədi. Mən çiynimlə dostumu dümsükləyərək gözlərimlə ona stolun üstündəki qəzetə baxmasını işarə etdim. Bir qədər dikələrək qəzetə yaxından baxdıqda sanki şoka düşdüm. Bu necə ola bilər! Axı mən “Kommunist”i hələ uşaq vaxtı, özü də demək olar ki, hər gün evimizdə görürdüm... Əslində məni heyrətə salan həm qəzetin adı (indi bu qəzet “Xalq qəzeti” adı ilə nəşr olunur), bir də buraxılış tarixi idi: 18 avqust 1957-ci il...

Mən hələ də nə olduğunu anlamayan dostuma sarı əyilib astadan dedim:

-Nahid, deyəsən, biz keçmiş zamana düşmüşük... Heç inanılası deyil, amma bu belədir, biz 1957-ci ildəyik. O ildə ki, Amerika ilə SSRİ arasında soyuq müharibə gedir. Bayaq uçmuş çətirin yanında başımızın üstünü alan, təpənə taxta parçası ilişdirən hərbi köynəkli o ağbaş kişi, bizi dövrəyə almış köhnə dəbli paltarda olan o kənd uşaqları, ikimizi də qamarlayıb buraya gətirən o milislər... Bunlar hamısı keçmişin adamlarıdır, qardaşım. Biz 1957-ci ildəyik... Üstümüzdən çıxan əşyalara, pulumuza, sənədlərimizə və hətta siqaretə görə bizi hələ ən yaxşı halda bu zamanın qanunlarına görə Sibirə sürgün gözləyir...

Başımıza gələnlərdən məndən də betər halda olan Nahid köksünü ötürdü:

-Düz deyirsən, qardaş. Oturduğumuz yerdə işə düşmək buna deyərlər...

Bu zaman otağın qapısı sürətlə açıldı, içəri ağ kitelli, qırmızı paqonlu mayor və bayaq bizi bura gətirən leytenant və beşaçılan tüfənglə silahlanmış iki sıravi milis nəfəri girdi.

Bu dəm dostum yadına nəsə düşmüş kimi sakit halda üzümə baxaraq dedi:

-Narahat olma, bunlarla dil tapmağa çalışacağam. Mənim polisdə tanışlarım çoxdur. Görərsən, onların adını verən kimi bizi azad buraxacaqlar...

Mən isə kədərlə ona baxdım.

- Ay hay, sən nə danışırsan? Unutdun? Biz 1957-ci ildəyik. Burada nə tanış, nə polis? Bunlar da ki, milislərdi...

Nahid özünü toplayıb milis mayoruna müraciət etdi:

-Hörmətli cənab rəis...

Bu sözdən sanki diksinən mayor acıqla, nifrət dolu baxışlarla onu süzüb sözünü ağzında qoydu:

-Mən cənab deyiləm, vətəndaş! Onu öz gəldiyin yerdə səni bura göndərənə deyərsən! Mən milis mayoruyam, mənə yoldaş mayor deyə müraciət et!

Nahid məsələni anlayıb səhvini “düzəltdi”:

-Yoldaş mayor, bizim heç bir günahımız yoxdur... Axı biz nə etmişik ki? Hamı kimi çimərlikdə istirahət edirdik. Heç kimlə də işimiz olmayıb. Biz yaxşı oğlanlarıq, özümüzə görə də mərifətimiz var. Anlaşarıq, dil taparıq...

Mayor bir qədər yumşalsa da, yola gəlmək, anlaşmaq istəmirdi.

-Əzizim, mən sizinlə müəyyən anlaşmaya gələ və sizi hətta əfv edib burdanca buraxardım. Məni tanıyanlar bilirlər ki, xeyirxah insanam. Amma bəs üstünüzdən tapılan əşyalar necə olsun? Yox, bu mümkün olan iş deyil. Sizi hələ Dövlət Təhlükəsizlik Komitəsinin əməkdaşları dindirəcəklər. Onlar bölməyə gələnə qədər sizə cavabdehəm. Casusları “dopros” etməyə ixtiyarım yoxdur! Mən milis nəfəriyəm, asayiş gözətçisi, çekist deyiləm. Əgər dediyiniz kimi, Bakıda anadan olubsunzsa, ən yaxşı halda sizi cəzanın ən ali forması gözləyir...

Nahidin narahatçılığı birə-beş artmışdı.

-Sən ölməyəsən, zibilə düşmüşük də...

Elə bu zaman dəhlizdə hay-küy, ayaq səsləri eşidildi, az keçməmiş qapı açıldı içəri dörd nəfər qəhvəyi rəngdə hərbi geyimli və göy papaqlı hərbçi daxil oldu. Onlar bizi dəvə nalbəndə baxan təki başdan-ayağa süzdülər.

-Qəhrəmanlarımız bunlardır?

Hərbçilərin qabağında farağat durmuş milis mayoru ələ keçməyimizlə bağlı ətraflı məlumat verdi:

-Bəli! Tərəfimizdən həbs olunaraq zərərsizləşdirilmiş və siz gələnə qədər nəzarət altında saxlanılmış şəxslər bunlardır. Sənədləri, pul əskinazları və üstlərindən çıxan radiotexniki qurğular da protokollaşdırılmışdır.

Onlardan biri yaxınlaşaq kinayəli baxışlarla bizi süzdü:

-Ну и вот… Попались, голубчики... Прилетели… Пора вас вывести на чистую воду! Ваши ровестники на войне жизнь отдавали, а вы чем занимаетесь и вот на чем попались…

Sonra isə əli ilə həmkarlarına bizi aparmalarını işarə etdi. Tutulduğumuz andan bizi nəzarətdə saxlayan milis mayorunun əlini sıxaraq ona təşəkkür etdi:

-Объявляю благодарность за бдительную работу!

Beləcə, bizi Dövlət Təhlükəsizlik Komitəsinə, indiki Pedaqoji Universitetlə özbəüz binaya gətirdilər. Hər ikimizi kobudcasına avtomobildən düşürdərək uzun dəhliz boyu aparıb səliqəli bir otağa saldılar.

**(davamı növbəti saylarımızda)**

**Nicat KAMRANOĞLU,**
**AMEA Fəlsəfə İnstitutunun aparıcı elmi işçisi,**
**Fəlsəfə üzrə fəlsəfə doktoru.**

# Azərbaycana yarım milyon saxta aksiz markası gətirən şəxslər ifşa olunublar

**Dövlət Təhlükəsizliyi Xidməti (DTX) və Dövlət Gömrük Komitəsi tərəfindən həyata keçirilmiş birgə əməliyyat tədbirləri nəticəsində Azərbaycan-Gürcüstan sərhədindən gömrük nəzarətindən gizli qaçaqmalçılıq yolu ilə Azərbaycana keçirilən, qanunsuz və saxta spirtli içki istehsalı üçün nəzərdə tutulan təxminən 500 min ədəd saxta aksiz markası aşkarlanaraq götürülüb.**

DTX-nin ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, araşdırmalar zamanı saxta aksiz markalarını sifariş verib gizli surətdə çatdırılmasını təşkil edən, ölkədə saxta aksiz markalarının qanunsuz dövriyyəsi ilə məşğul olan Azərbaycan Respublikası vətəndaşları Mehdiyev İntiqam Hüseyn oğlu və Nəcəfov Ruslan Həmzə oğlu müəyyənləşdirilərək cinayət məsuliyyətinə cəlb olunublar.

Başlanılmış cinayət işi üzrə araşdırmalar davam edir.

Azərbaycan Respublikasında vətəndaşların sağlamlığına qəsd edən hüquqazidd əməllərin qarşısı bundan sonra da qətiyyətlə alınacaq.

**AZƏRTAC**

## Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin Tender komissiyasının bildirişi

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin Zərdab Rayon Statistika İdarəsi üçün inzibati binanın tikintisi məqsədilə layihə-smeta sənədlərinin hazırlanması üzrə işlərin satınalınmasına dair 2018-ci il aprel ayının 18-də elan olunmuş kotirovka sorğusu prosedurunda "TFM-SMART PROJECT" Məhdud Məsuliyyətli Cəmiyyəti qalib gəlmişdir.

**Tender Komissiyası.**

## Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin Tender komissiyasının bildirişi

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin Göygöl Rayon Statistika İdarəsi üçün inzibati binanın tikintisi məqsədilə layihə-smeta sənədlərinin hazırlanması üzrə işlərin satınalınmasına dair 2018-ci il aprel ayının 18-də elan olunmuş kotirovka sorğusu prosedurunda "TFM-SMART PROJECT" Məhdud Məsuliyyətli Cəmiyyəti qalib gəlmişdir.

**Tender Komissiyası.**

## Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin Tender komissiyasının bildirişi

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin inzibati binasının yenidən qurulması və əsaslı təmirinin layihə-smeta sənədlərinin hazırlanması üzrə işlərin satınalınması məqsədilə 2018-ci il aprel ayının 18-də elan olunmuş kotirovka sorğusu prosedurunda "AT və S" Məhdud Məsuliyyətli Cəmiyyəti qalib gəlmişdir.

**Tender Komissiyası.**

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC

### *Mis boruların satınalınması məqsədilə*

## AÇIQ MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.acsc.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2018-ci il mayın 24-ü saat 18.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan:** *Bakı, Heydər Əliyev prospekti 152, "Çinar plaza", 24-cü mərtəbə.*

**Əlaqə telefonu:** *(012) 404-37-00, daxili: 1132.*

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu tərəfindən "Respublika" qəzetinin 24 aprel 2018-ci il tarixli nömrəsində dərc edilmiş "İnventarların alınmasına" dair satınalması prosedurunun 18 may 2018-ci il tarixində keçirilməsi nəzərdə tutulan açıq tenderin açılış tarixi 22 iyun 2018-ci il tarixinə saat 17:00-a dəyişdirilmişdir. Müvafiq olaraq ilkin sənədlərin qəbulu 06 iyun 2018-ci il saat 17:00-a, tender təklifləri ilə bağlı zərflərin qəbulu 21 iyun 2018-ci il saat 12:00-dək təyin edilir.

## ELAN

"İstehlak bazarına nəzarət, standartlaşdırma, metrologiya və əqli mülkiyyət hüquqları obyektlərinin mühafizəsi sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 20 aprel 2018-ci il tarixli 5 nömrəli Sərəncamı ilə Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi ləğv edilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 319s nömrəli Sərəncamı ilə Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin ləğv edilməsi məqsədilə Ləğvetmə Komissiyası yaradılmışdır.

Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin kreditor borcları olan hüquqi və fiziki şəxsləri öz tələblərini 18 may 2018-ci il tarixindən 18 iyul 2018-ci il tarixinədək Ləğvetmə Komissiyasına bildirə bilərlər.

**VÖEN: 1400386271**

**Hüquqi ünvan: AZ1147 Bakı şəhəri, Nəsimi rayonu, Mərdanov qardaşları küç.124**

**Əlaqə tel: (012) 449-99-59 (daxili 121)**

## Azərbaycan Dövlət Aqrar Universiteti 2018-ci ildə Azərbaycan Respublikasının dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitdən avadanlıqların satın alınması və inzibati binanın əsaslı təmiri üzrə

## AÇIQ TENDER ELAN EDİR

**Tender üç lot üzrə kecirilir:**
**Lot 1 - Laboratoriya avadanlıqlarının alınması**
**Lot 2 - Digər maşın və avadanlığın alınması**
**Lot 3 - İnzibati binanın əsaslı təmiri**

Tenderdə iştirak etmək istəyənlər hər bir lot üzrə 300 manat məbləğində iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu Gəncə şəhəri, Atatürk prospekti, 450 ünvanı Azərbaycan Dövlət Aqrar Universitetindən ala bilərlər.

**(əlaqələndirici şəxs: Bəşirova Səfurə, telefon: 256- 99-46).**

*Bankın adı: Bank BTB ASC Gəncə filialı*
*Kod: 501521*
*VOEN: 1302164881*
*Müxbir hesab: AZ57NABZ01350100000000093944*
*SWİFT: BBTBAZ22*
*Azərbaycan Dövlət Aqrar Universiteti*
*H/Hesabı: AZ94BBTB38090944074893000006*
*VOEN: 2300314671*

Tender təkliflərinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: mövcud qanunvericiliyə uyğun olaraq ən səmərəli tender təklifinə, kadr potensialına, maliyyə və texniki imkanlara.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*- Tenderdə iştirak etmək üçün ərizə (ərizədə müəssisənin adı, yerləşdiyi ünvanı, poçt indeksi, telefon nömrəsi, rəhbərinin adı və soyadı göstərilməklə möhürlənmiş və imzalanmış olmalıdır);*

*-Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*

*-Tender təklifi (tender prosseduru keçirildiyi tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*

*-Tender təklifi qiymətinin 3 faizi həcmində bank təminatı (tender proseduru keçirildiyi tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır) tender təklifi ilə birlikdə təqdim olunur. Bank təminatını tender təklifi zərfində təqdim etməyən iddiaçının tender təklifi etibarsız sayılır və qiymətləndirməyə buraxılmır:*

*-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında arayış:*

*-İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı:*

*-İddiaçının son hesabat dövründəki fəaliyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (forma N1 və N2);*

*-Analoji işlərdə təcrübəsi, iddiaçının potensial, texniki və kadr imkanları haqqında rəsmi məlumat;*

*-İddiaçının tam adı, hüquqi statusu nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

İddiacılar tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tender proseduru "Dövlət satınalmaları, haqqında" qanuna uyğun keçiriləcəkdir.

